

## Qarabağ cəbhəsində gərginlik yenidən alovlana bilər

*Ermənistan təxribat xarakterli addımlarını davam etdirməkdədir. Narahatedici məqamlardan biri də odur ki, 44 günlük müharibənin dayandırılması və razılaşmada vasitəçi olan Rusiya da bu təxribatların davamlı olması üçün zəmin yaradır. Üstəlik tərəflər arsında yerləşdirilər Rusiya sülhməramlı qoşunları öz missiyasından kənar addımlar atır, ermənilərin maraqlarına uyğun fəaliyyət göstərirlər.* Səh.9



# UNİKAL

№31 (2069) 27 avqust 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru

## Ramin Bayramlının müəmmalı susqunluğu...

Səh.3



## Prezidentdən növbəti Qarabağ və Zəngəzur mesajı

## TƏBİB rəhbəri özü barədə iddialara niyə cavab vermir?

*Yola salmaq üzrə olduğumuz həftə yerli media Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı özünə dəbdəbəli villa tikdirdiyi barədə məlumat yayıb. Həmin məlumatda iddia edilir ki, qurum rəhbəri 1 sot torpaq sahəsinin 70 min manatdan satıldığı Badamdar qəsəbəsi, birinci massivdən 4 sot torpaq alıb. İddialara görə, həmin torpaq sahəsində villa inşa etməyə başlayan Bayramlı baha qiymətə aldığı torpağı pandemiyadan qazanılan pullarla əldə edib. Elə villa da həmin pullarla tikilir (həmçinin bəziləri sosial şəbəkələrdəki müzakirələrdə Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə Baş...* Səh.5

## "Sistemin arxasında oğurluq təfəkkürü durursa, bunun xalqa faydası olmur"



*Xəbər verildiyi kimi, son günlər ölkədə koronavirusa yoluxma halları artmaqda davam edir. Bu ilin əvvəlinə qədər, vaksinasiya prosesindən sonra pandemiyanın bitəcəyi proqnozlaşdırılsa da, yoluxma və ölüm hallarının artması qeyri-müəyyən vəziyyət yaradıb. "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini...* Səh.4

## Elmar Məmmədyarovun mənimsədiyi milyonlarla bağlı vacib sual



*Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) İşlər idarəsinin sabiq müdiri Fərhad Mollazadə və İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadənin cinayət işi üzrə bu həftəki son məhkəmə iclasında maraqlı faktlar ortaya çıxıb. Belə ki, şahidlərin dindirildiyi həmin prosesdə XİN-in nümayəndəsinə söz verilib.* Səh.8

## Birgəyaşayışın Azərbaycan modeli...



*"Multikultrallıq Azərbaycan xalqının həyat tərzidir". Bu söz artıq aforizmə çevrilməkdədir. Əsrlərdir birgəyaşayış mədəniyyəti nümayiş etdirən Azərbaycanda çoxsaylı etnik xalqlar yaşayır. Azsaylı xalqlaradinc şərait, heç bir ayrıseçkiliyin qoyulmaması onların ölkəmizdə əsrlərdir ki, yaşamasına səbəb olan əsas amildir.* Səh.11

# 16 ay teatrsız qalan aktyorlar: "Biz yaşamırıq"

***Artıq iki ilə yaxındır ki, pandemiya ilə əlaqədar bir çox məkanlar, mədəniyyət ocaqları, eləcə də teatrların fəaliyyəti dayandırılıb. Bu müddət ərzində isə bir çox teatrların əməkdaşları işsiz qalıblar. Sənət adamlarından kimi sosial şəbəkədə etirazını bildirib, kimi Operativ Qərargaha səslənib.***



Axşam.az sənət adamlarından teatrsız 16 ayı necə keçirdiklərini soruşub: Xalq artisti Məleykə Əsədova teatr üçün darıxdığını deyib: ”Teatr üçün çox darıxmışam. Yəqin ki, bu mövsümdə açılar”.

Xalq artisti Naibə Allahverdiyeva açıq havada tamaşa oynamağı məsləhət görüb: ”Ana öz balası üçün necə darıxarsa, biz aktyorlar da səhnə üçün elə darıxırıq. Səhnəsiz ruhumuz çöküb. Pandemiya tüğyan edir, bu vəziyyətdə nəyin necə olacağını bilmək çətindir. Amma bir yenilik edə bilərlər: havalar soyuyana qədər açıq havada da tamaşa göstərə bilərik. Tamaşaçılar da maraqla qarşılayar”.

Xalq artisti Firəngiz Mütəllimova isə koronovirus infeksiyasının yayıldığı ərəfədə teatrların qapalı qalmasının tərəfdarı olduğunu söyləyib: ”Çox çətindir, teatr canlı və kollektiv sənətdir. Təsəvürünüzə gətirin, bu üçüncü dalğanın başladığı vaxtda, xəstə sayının artdığı ərəfədə kollektiv sənətdə nələr ola bilər. Hərə bir evdən gəlir. Bu qədər ayı, ili səbrlə dözmüşük. Sənət dostlarıma demək istərdim ki, bir az da səbr edək, gözləyək. Hər yer mərhələ-mərhələ açılır. Növbəti dəfə bizim teatrlar da açılar. Sənət dostlarımın səhnəyə sağ-salamat gəlib çıxmalarını arzulayıram. Tək biz yox, bütün dünya bu dəqiqə bu bəladadır. Virusu ağır da, asan da keçirən olur. Ehtiyatlı olmaq lazımdır. Ona görə də deyirəm ki, dözək, salamat səhnəyə qayıdaq və rollarımızı oynayaq.

Əməkdar artist Nahidə Orucova bildirib ki, teatrsız ona çətindir: ”İki ildir biz teatrsızıq. Belə şey olar? Hərdən efirə gedirdik, qurdumuzu öldürürdük. İndi efir də yoxdur, verilişlər mövsüm finalına çıxıb. Qalmışıq çəkilişsiz. Teatrsız necə olaq? Hər yer açılıb, bir teatrdan başqa. Belə çıxır ki, heç yerdə Covid-19 yoxdur, bircə teatrda var? Kinoteatrlar və teatrlarsız olmaz. 43 ildir ömrümü səhnəyə həsr etmişəm. Səhnə məni yaşadırdı. İndi necə olum? Çarəsizik... Gözləyirik, yalvarırıq ki, sentyabrda açsınlar. 16 ay işsiz qalmışıq, bütün məşqlər sıfırdan başlamalıdır. Bizi yaşadan teatr, səhnə, tamaşaçılardır. Biz tamaşaçıdan enerji alırıq. Nə yaxşı bir az enerjimiz qalıb. Belə davam etsə, o da bitəcək. Nədən enerji alaq? Elə bil birdən-birə teatr heç kimə lazım olmadı. Çox üzücüdür, xoşagələn hal deyil. Həsrətlə gözləyirik ki, səhnəmiz açılsın. Gedək o səhnənin tozunu, iyini udaq. İndi yaydır rayonlara gedib, dincəlirik, təbiətdən zövq alırıq, nəfəs aldıq. Qışda belə olsa, nə edəcəyik? Aktyor işsiz paslanır. Yenidən əvvəlki tempə qayıtmaq çətin olacaq. Pas atıb gedirik”.

Əməkdar artist Anar Heybətov teatrların qapalı qalmasının sənət adamları üçün uğursuz olacağını açıqlayıb: ”Çox çətindir. Aktyor teatrsız susuz balıq kimidir. Hər yerə icazə var, təkcə teatrlardan başqa. Niyə? Vaksin olunanlar həm işə, həm də tamaşaya gələ bilərlər. Belə getsə, nəticə yaxşı olmayacaq. Ən yaxşısı teatrlar açılsın, biz də işə başlayaq. Gələcəkdə lazım bilərlərsə, tamaşaçılar üçün uyğun üsul taparlar. Az sayda tamaşaçı ilə tamaşa oynamaq olar. Restoranlar, toylar, ticarət mərkəzləri açılıb. Bəs teatr? Nə bilim...”.

Əməkdar artist Sənubər İsgəndərli də dəfələrlə sosial şəbəkədə teatrların bağlı qalmasına etirazını bildirib. ”Əgər Covid-19 pasportu ilə hər yerə getmək olarsa, niyə teatrlara, kinoteatrlara həmin pasportla getmək olmaz? Pandemiya imkan verdi ki, bir çox şeyə kənardan baxdıq. Sənətə, həyata, insanlara baxışımız dəyişdi. Ona görə də düşünürəm ki, dəyişikliklər çox olacaq. Əvvəlki kimi heç nə olmayacaq. Çıxış yolları, variantları tapmaq lazımdır. İşimizə qayıtmaq üçün işlər gedir. Ən əsası məsələ isə odur ki, qayıdandan sonra biz tamaşaçıya nə deyəcəyik, hansı mövzulara müraciət edəcək, nələri qabardacağıq. İnandırım sizi ki, həmkarlarımdan kimdən soruşsanız eyni söz deyiləcək: balığı sudan çıxaranda necə olar? Teatr bizim evimizdir, insanı evindən çıxaranda necə olar? Teatr canlı sənətdir. Min onlayn tamaşa olsun, mükün deyil. Aktyor tamaşaçı nəfəsin duymalıdır. Onda o sehir baş verir. Bu sənətə ömrünü verən, onu yaşadan sənətkarlar və onun yolunu gözləyən, sevən tamaşaçılar var. Bir ildir teatrlar bağlıdır. Belə davam edərsə, bu, teatr sənətinin məhvi olacaq. Demirəm, teatrlar açılan kimi tamaşa oynanılsın, tamaşaçı gəlsin, onsuz bu mümkün deyil. Amma yeni tamaşaların məşqinə başlaya bilərik ki, sabah teatrın pərdələri açılanda tamaşaçılarımızın qarşısına çıxa bilək” deyə, aktrisa müxtəlif vaxtlarda məsələ ilə bağlı etdiyi paylaşımlarında bildirib.

Əməkdar artist Tünzalə Əliyeva tamaşa oynamaq üçün darıxdığını deyib: ”Çox çətindir, aktrisa səhnədə böyüməli, yetişməli, ölməlidir. İndi dünya bu bəladadır. Biz də qaydalara əməl edirik. Bəlkə yaxın günlərdə açılar, tamaşalarda oynayarıq”.

Aktrisa Zümrüd Qasımova isə teatrsız qalan aktyorların yaşamadığını bildirib: ”İki ilə yaxındır ki, tamaşa yoxdur. Pandemiya aktyorlara pis təsir etdi. Yaşayıram, dövlət maaş da verir. Amma hiss etdim ki, mən teatrsız hamıdan birinə çevrildim. Teatrsız həyat yoxdur. Film yox, teatr adamları fərqlidir. Başa düşdüm ki, biz yaşamırıq, elə-belə mövcuduq. Mənim üçün teatrsızlıq böyük faciədir. Tamaşaçı ilə ünsiyyət həyatdır. Hər zaman deyirəm ki, iki həyatım var: biri real, digəri teatrdakı. İkili həyat yaşamışam. İndi isə bir həyatı yaşamağa məcbur oldum. Teatrsız həyat istəmirəm. İstəyirəm səhnə, məşqlər olsun. Deyirlər peyvəndlənmə 80 faizə çatanda teatr açılacaq. Teatr canlı sənətdir. İndi və burada baş verir. Onlayn tamaşa oldu. Teatr aktyorunu başa düşməzlər. Bizim var olmağımızdır. Bir çox sənət adamları etiraz edir”.



## "Hamı bir-birini aldadıb, özünə xeyir güdür" - Xatirə gileyləndi

***”Sizə elə gəlmir ki, son vaxtlar həyat çox maraqsız, mənasız və eyni zamanda çox adiləşdi?”.***

Bu sözləri müğənni Xatirə İslam sosial şəbəkədə yazıb. Sənətçi son günlər sosial şəbəkədə paylaşdığı fotoları və yazdığı şərhləri ilə diqqət çəkib.

Sənətçi ”Artıq insanlar bu həyatdan sağlamlıqdan başqa heç nə istəmir” deyə, sözlərinə davam edib.

”Özündən başqasına inanmayan qadın” deyən Xatirə daha sonra insanların etibarsızlığından gileylənib: ”İnsanlar dəyişir, bunu günbəgün hiss etmək olur artıq. Bu gözəl dünyanı insan əlləri yaratdı, insan əlləri də məhv etdi. Ana balaya, bala anaya yadlaşır. Hamı bir-birini aldadıb, özünə xeyir güdür. Allahım, özün kömək ol. Dünyamız murdarlanır”.

## "Mənə qədər Tacir Şahmalıoğlunun yadına düşmürdü" - Gülay

***”Mövsümlə - yaydı, qışdı mahnı oxuyan deyiləm. Könlümdən nə keçirsə onu oxuyuram. Baxmıram küçədə yağışdır, yoxsa gün çıxıb. Belə müğənnilərimiz var”.***



Bu sözləri müğənni Gülay Zeynallı ”Özəl” proqramında deyib. ”Yarım gözlər məni” mahnısından danışan ifaçı Tacir Şahmalıoğluna söz atıb: ”Hacı Nazimin yanına getdim, mahnı istədim. Bu bəstəni seçdim, dedi Tacir Şahmalıoğlu oxuyub. Dedim, nə fərqi var ki... Ondan icazə aldıq. Mən oxuyana qədər Tacir müəllimin yadına düşmürdü. Mən oxuyandan sonra o da ifa etdi”.

# Elmar Məmmədyarovun mənimsədiyi milyonlarla bağlı vacib sual

## Xarici siyasət idarəmizin keçmiş başçısı da "yediyi" dövlət vəsaitlərini geri qaytaracaqmı?

***Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) İşlər idarəsinin sabiq müdiri Fərhad Mollazadə və İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadənin cinayət işi üzrə bu həftəki son məhkəmə iclasında maraqlı faktlar ortaya çıxıb. Belə ki, şahidlərin dindirildiyi həmin prosesdə XİN-in nümayəndəsinə söz verilib.***

Öz növbəsində isə nümayəndə qeyd edib ki, XİN-in tələbi dəymiş ziyanın ödənilməsidir: "Dəymiş ziyanın ümumi məbləği 2 543 173 manatdır. Bu məbləğin 2 300 000 manatı Fərhad Mollazadə tərəfindən dənilib. Hazırda 243 173 manat ödənilməmiş olaraq qalır.

Hakim Əfqan Hacıyev təklif edib ki, yerdə qalan məbləği Səlim Əlizadə ödəsin. Gəlin razılaşaq ki, haqqında danışılan kifayət qədər böyük pullardır və istər-istəməz sual ortaya çıxır: bir nazirliyin İşlər idarəsi müdirində və ya həmin idarənin Təsərrüfat şöbəsinin müdirində bu qədər pul hardandır? Ən yaxşı halda 1000-1200 manat maaş alan bu məmurların əllərinin milyonlarla "oynaması" Elmar Məmmədyarovun XİN-ə rəhbərliyi dövründə ölkənin xarici siyasət idarəsinin hansı kökə salındığının növbəti bariz nümayişidir.

Üstəlik, cəmiyyət haqlı olaraq belə düşünür ki, adıçəkilən nazirlikdə dərin kök atmış və geniş miqyas almış rüşvət, korrupsiya hallarından eks-nazirin xəbərsiz olması inandırıcı deyil. Eləcə də bunun konkret sübuta da ehtiyacı yoxdur. Axı onun böyük oğlu Emin Məmmədyarovun atası vəzifədə olarkən Nyu-Yorkda bahalı mənzil alması barədə xəbər təsdiqlənib. Bəlli olub ki, nazir oğlu Nyu-Yorkda 1 yox, 2 mənzil alıb. Mənzillərin ümumi dəyəri 4.2 milyon dollardır. Nyu-York Vegri Departamentindən bildirilib ki, mənzillər Riversayd bulvarı, "Tramp-Pleys"dəki binalarda yerləşir.



Bundan başqa, Məmmədyarovun vəzifədə olduğu illərdə XİN davamlı şəkildə korrupsiya qalmaqallarına görə tənqid olunub, nazirin özü isə yerli KİV tərəfindən səriştəsizlikdə ittiham edilib. Hesablama Palatasının istər nazirlikdə, istərsə də ayrı-ayrı ölkələrdəki diplomatik korpuslarında aparılan auditlər zamanı ortaya çıxardığı mənimsəmələr də deyilənlərin sübutudur. Bir qism isə hesab edir ki, sabiq nazirin XİN-dəki yeyintilərdən xəbəri olmayıbsa belə, onun həbsi üçün kifayət qədər ciddi əsaslar mövcuddur: "Elmar Məmmədyarovun siyasi məsuliyyəti də var. O vaxt Cahangir Hacıyevin rəhbərlik etdiyi Beynəlxalq Bankdan milyardlar oğurlananda məlum olmuşdu ki, arxasında Eldar Mahmudov dayanır. Bəs Elmar Məmmədyarovun tutulan komissiya sədri, idarə rəislərinin arxasında kim dayanıb? Bu adamlar kimdir ki, dövlət büdcəsindən bu sahəyə ayrılan pulları mənimsəsinlər? Elmar Məmmədyarov 16 il həmin sahəyə rəhbərlik edib. Təbii ki, pul məsələləri də birbaşa onun kurasiyasında olub. İşçiləri onu 1-2 il aldada bilərdilər. Yerdə qalan illəri kimin ayağına yazacaq? Pul məsələsi belədir ki, xərcləyəndə oğurluqları aydın görünür. Hamı bilir ki, pul xərcləmə məsələsi nazirliklərdə nazirin imzası ilə gerçəkləşir. Bir qədər əvvəl Mədəniyyət Nazirliyində əməliyyat keçirildi. Orada da eyni vəziyyətdir. Bunu bilməyən var? Ola bilsin ki, bəzi xırda məsələlər digər şəxslərə tapşırılsın, amma tam olaraq məsuliyyət nazirin üzərindədir. Nazirin baş verənlərdən xəbərsiz olmasını düşünmək üçün sadəlövh olmaq gərəkdir. Dövlət büdcəsindən konkret sahəyə ayrılan pulların idarə edilməsinə, təyinatı üzrə xərclənməsinə nəzarət etməli şəxs

həmin sahəyə rəhbərlik edəndir. Bu halda isə nazir Elmar Məmmədyarovdur. Elmar Məmmədyarov ən azı Cinayət Məcəlləsinin 314-cü - səhlənkarlıq maddəsi ilə istintaqa cəlb olunmalıdır" - əksər hüquqşünasların ortaq qənaəti belədir.

Lakin görünən odur ki, XİN-in sabiq rəhbəri üçün həbs təhlükəsi hələlik müəyyən qədər sovuşub. Belədə cəmiyyət ən azından Məmmədyarovun vəzifədə olarkən mənimsədiyi, yaxud mənimsəməsinə göz yumduğu, "yaşıl işıq" yandırdığı büdcə vəsaitlərinin tamamilə geri qaytarılmasını gözləyir. Xüsusilə Qarabağda genişmiqyaslı abadlıq-quruculuq işləri aparıldığı vaxtda dövlətimizin korrupsiya "qurbanına" çevrilən belə vəsaitlərin yenidən büdcəyə qazandırılmasına ehtiyacı var.

Bəs cəmiyyətin, heç olmasa bu gözləntisi doğrulacaqmı? Yaşayarıq, görərik...

***Hüseyn İsgəndərov***

# Kəlbəcərdən sonra hədəf Qubadlıdır? - Qəfil hücumun səbəbləri

***"Ermənistanda yetərli qədər maraqlı qüvvələr var ki, məğlubiyyətlə barışmaq istəmir, revanşist idealarla yaşayırlar. Hiss olunur ki, dövlət bu qüvvələri tam şəkildə idarə edə bilmir. Bu qüvvələr mütəmadi olaraq xaricdə yaşayan ermənilər və müəyyən maraqlı dairələr tərəfindən maliyyələşdirilir".***

"Unikal" xəbər verir ki, bu sözləri Modern.az-a hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov erməni hərbçilərin dünən Qubadlıda törətdiyi təxribatdan danışarkən deyib. Onun sözlərinə görə, Ermənistandakı təxribatçı qüvvələr Cənubi Qafqazda stabilliyi pozmağa çalışır: "Vəziyyətin gərginləşməsində maraqlı olan qüvvələr var. Paşinyan yaxşı başa düşür ki, onların başqa cür çıxış yolları yoxdur. Ermənistanın bir çıxış yollu var, o da Azərbaycanın şərtlərinə uyğun olaraq yaşamaqdır. Paşinyanın iqtidarı o qədər güclü deyil ki, ölkəsinin niyyətlərini yerinə yetirsin.

Parlamentdəki davalar onu göstərir ki, seçkilər keçsə də, dövləti idarə edə bilmir. İstər Qubadlıda, istərsə də başqa yerlərdə təxribat törətmələri ondan xəbər verir ki, Ermənistanın daxilində problemlər var, belə halların qarşısını ala bilmirlər. Əlbəttə, bu kimi təxribatların olması istisna deyil.



Ancaq Azərbaycan ordusu qarşısına qoyduğu bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Ermənistan tərəfindən atılan təxribatçı addımlara adekvat cavab veriləcək. Düşmən yenə itkiyə məruz qalacaq. İndiyə kimi törədilən təxribatlar onu göstərdi ki, Ermənistan zəifdir. Sərhəddən Azərbaycan əsgəri nə qədər erməni qulduru yığıb. Bu, belə olub, belə də olacaq. Düşünürəm ki, narahatlığa heç bir səbəb yoxdur. Azərbaycan ordusunun döyüş qabiliyyəti hər zaman yüksəkdir, lazım olan silahlarla təchiz olunub. Ermənistanın hər bir təxribatına qarşı istənilən yerdə - rus sülhməramlılarının olduğu və ya sərhəddə cavab verməyə qadirik Hər şey Azərbaycanın nəzarəti altındadır".

Siyasi ekspert Elman Vəliyev isə bildirib ki, Ermənistan tərəfi üçün artıq çəmbər daralır. Onun fikrincə, İrəvanın təxribatçı addımları ermənilər üçün böyük problemlər yaradacaq:

"Baş nazir Nikol Paşinyan Azərbaycanla müzakirə aparmağın mümkün olduğunu deyir. Ancaq cəbhədə təxribatlar səngimir. Ermənistanı sülhə razılıq verməsi üçün təhrik edirlər. Rusiya da sülhə meyillidir. Ermənistan tərəfini silahlandıraraq həm bölgədə "balansı" qorumağa çalışır, yəni Ermənistanın tam çökməsini istəmir, çünki Ermənistan hələ Rusiyaya lazımdır, həm də bu ölkəni qızışdırır ki, təxribatlar törətsin. Ermənistan da belə təhrikə gedərək propaqandalar etməklə Azərbaycan tərəfini güc tətbiqinə məcbur edir. Paşinyan da öz hakimiyyətindən ehtiyat edir. Yanlış addım atılaraq təzyiqlərə, təxribatlara məruz qalmaqdan çəkinir. Ermənistan parlamentindəki dava daxili çaxnaşmaların bir nümunəsidir. Digər bir məsələ Paşinyanın sovet xəritələri əsasında danışıqların ola biləcəyini dilə gətirməsidir, ancaq hansı sovet xəritələri?

"1920-ci illərdəki sərhədlər olarsa, biz razıyıq. Çünki həmin dövrdə Ermənistanın əraziləri kiçik seqmentdən ibarət idi. Ancaq SSRİ-nin dağılma dövrünü nəzərdə tutursa, bununla razılaşmaq olmaz! Zənn etmirəm ki, tərəflər arasında yeni genişmiqyaslı müharibə olsun. Ancaq Ermənistan tərəfi yenə destruktiv mövqe nümayiş etdirərsə, Azərbaycan tərəfi güc tətbiq edəcək. Ermənistanın bu cür yanaşması konfrontasiyaya səbəb ola bilər, bu da rəsmi İrəvan üçün böyük problem yaradacaq".

Qeyd edək ki, 25 avqust saat 15:45 radələrində Gorus-Qafan yolunun Qubadlı rayonunun Aşağı Cibikli kəndi yaxınlığından keçən hissəsi istiqamətində yerləşən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qubadlı" əlahiddə sərhəd diviziyasının sərhəd-döyüş məntəqəsinin ərazisində xidmətdə olan əsgər Şirəliyev Ruslan Nəriman oğlu Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusunun qəfil hücumuna məruz qalıb, əlbəyaxa döyüş zamanı sinə nahiyəsindən süngü bıçaqla xəsarət alıb.

Digər sərhəd naryadlarının köməyə gəldiyini görən Ermə nistan hərbçiləri ərazinin sıx meşəlik olmasından istifadə edərək geri qaçıb. Əsgər R.Şirəliyev təcili olaraq Dövlət Sərhəd Xidmətinin hərbi hospitalına təxliyə edilib, hazırda həyatı üçün təhlükə yoxdur.

# Qarabağ cəbhəsində gərginlik yenidən alovlana bilər

## İki yol var: ya Ermənistanı təxribatdan çəkindirməli, ya da Azərbaycanla münasibətlər gərginləşməlidir

***Ermənistan təxribat xarakterli addımlarını davam etdirməkdədir. Narahatedici məqamlardan biri də odur ki, 44 günlük müharibənin dayandırılması və razılaşmada vasitəçi olan Rusiya da bu təxribatların davamlı olması üçün zəmin yaradır. Üstəlik tərəflər arsında yerləşdirilər Rusiya sülhməramlı qoşunları öz missiyasından kənar addımlar atır, ermənilərin maraqlarına uyğun fəaliyyət göstərirlər.***

Belə ki, son günlər Ermənistan hakimiyyəti və Qarabağdakı erməni separatçılarla yanaşı, Rusiyanın da regional problemləri artıb. Xankəndində su kəsilir, rusiyalı hərbçilər su daşıyırlar, silah anbarında partlayış baş verir, alovu söndürməyə çalışırlar, mobil əlaqə kəsilir, bunun bərpası haqqında düşünmək məcburiyyətində qalırlar. İndi də rusiyalı hərbçilər tökülüşüblər Gorus-Qafan yoluna, ərazimizə düşən və azərbaycanlı sərhədçilərin bağladığı yolu açmağa çalışırlar.

Bu barədə fikirlərini “Unikal”la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, rusiyalı hərbçilər özlərini Abxaziyada, Cənubi Osetiyada, qeyri-rəsmi var olduqları Dnestr və Donbass bölgəsində daha rahat hiss edirlər, çünki ayırıcı xətlər bəllidir, toqquşmalar yox dərəcəsindədir, mövqelərini qoruyurlar. Onun sözlərinə görə, Qarabağ və Azərbaycan-Ermənistan sərhədində isə durum tam fərqlidir, Moskvanın vasitəçiliyi ilə müharibənin bitməsini şərtləndirən iki bəyanatın qəbul olunmasına baxmayaraq, toqquşmalar və gərginliklər davam edir, faktiki münaqişənin yeni fazasına daxil olmuşuq, anti-terror əməliyyatının həyata keçiriləcəyi də istisna deyil: “Rusiya bir tərəfdən strateji müttəfiqi olan Ermənistanı dəstəkləyir, onu yenidən silahlandırır, Qarabağda erməni separatçıları ilə təmas içindədir, ancaq o biri tərəfdən Azərbaycanla münasibətləri korlamaq istəmir. Ancaq Moskva üçün ikisini bir arada tutmaq getdikcə çətinləşir. Azərbaycan cəmiyyəti Rusiyanın siyasətindən narazıdır, əksəriyyət ordunun Laçın dəhlizini nəzarət altına almasını və Qarabağdakı separatçıların tərksilahını tələb edir. Ermənilərin artan təxribatları bizdən bu prosesi sürətləndirməyi tələb edir. Kreml iki yoldan birini seçməlidir: ya Ermənistanı təxribatlardan çəkindirməli, iki dövlət arasında sülh sazişinin imzalanmasını, sərhədlərin müəyyənləşdirilməsini, o cümlədən Zəngəzur dəhlizinin fəaliyyətə başlamasını sürətləndirməli və bununla bölgədə sabitliyə nail olmalı, ya da Ermənistana və onun təxribatlarına dayaq durmaqla tədricən Azərbaycanla münasibətləri gərginləşdirməlidir”.

Elxan Şahinoğlu Azərbaycan hərbi qulluqçusunun ermənilər tərəfindən ələ keçirilməsi məsələsinə də toxunub: “Müdafiə Nazirliyinin açıqlamasında deyilir ki, hərbçimiz Babayev Cəmil hospitalı özbaşına tərk edib və buna görə onun haqqında cinayət işi başlanıb, araşdırma aparılır. Müdafiə Nazirliyinin sonrakı cümləsində isə yazılır ki, “hərbi qulluqçumuz Rusiya sülhməramlılarının nəzarətində olan əraziyə keçib”.



Birinci cümlədə “araşdırılma aparılır” sözləriylə kifayətlənmək olardı, çünki bu bəyanatı düşmənlərimiz də oxuyacaq. “Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazi” cümləsinə Xarici İşlər Nazirliyinin daima doğru işlətdiyi “müvəqqəti” sözü əlavə olunmalı idi. Ən başlıcası isə Müdafiə Nazirliyinin açıqlamasında hərbçimizin qeyd-şərtsiz geri qaytarılması tələb olunmalıydı. Azərbaycan hərbçisi hərbi hissəni qanunsuz tərk etsə də, cinayət törətməyib, öz ərazisində hərəkət edib, onu isə öz torpağında olduğuna görə separatçılar həbs ediblər. Əsl cinayət budur”.

Onu da nəzərə çatdıraq ki, sentyabrın 2-də Xankəndində seperatçı-terrorçu rejim qondarma “müstəqillik günü” keçirməyə hazırlaşır. 1991-ci ilin 2 sentyabr tarixində Qarabağdakı erməni seperatçılar qanunsuz “referendum” keçirərək, Azərbaycandan ayrılmaqla bağlı qərar qəbul ediblər. Qeyd edək ki, bu, müharibədən sonra ermənilərin ilk “müstəqillik günü” qeyd etmək planıdır.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov bildirib ki, 2 sentyabr tarixində Qarabağdakı seperatçıların törtöküntüləri 30 il bundan əvvəl qeyri-qanuni yaratdıqları bir qurumun ildönümünü keçirməyə hazırlaşırlar: “Bu hadisənin özü bir neçə ciddi nəticələr çıxarmağa əsas verir. Birinci nəticə odur ki, bu hadisə ilk dəfədir Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar fonunda baş verir. Yeni reallıqların isə əlaməti odur ki, Ermənistan bu müharibədə biabırçı məğlubiyyətə düçar olub. Belə olan reallıqda 2 sentyabrda qeyri-qanuni aksiyanın həyata keçirilməsi revanşizmin birbaşa ifadəsidir və regionda vəziyyəti yenidən gərginləşdirməkdən başqa bir şey deyil. İkinci çıxarılan nəticə isə ondan ibarətdir ki, Paşinyan avqust ayının 24-də parlamentdəki çıxışı zamanı Azərbaycanla əməkdaşlıq etməyə hazır olduğundan bəhs edərək özünü, “göyərçin”, “sülh carçısı” kimi göstərmək istədi. Bundan əlavə o, kommunikasiyaların bərpasından danışdı və bunun region üçün əhəmiyyətindən bəhs etdi, amma paralel şəkildə onun tapşırığı ilə seperatçılar belə bir qeyri-qanuni, beynəlxalq hüquqa zidd addım atırlar və bu da, Paşinyanın söylədiyi fikirlərin nə dərəcədə riakar mahiyyət daşıdığını ortaya qoyur. Üçüncüsü isə, müharibədə məğlub tərəf olan Ermənistan silahlı qüvvələri və eyni zamanda onların müdafiə etdiyi Qarabağ seperatçılarının bu davranışı heç bir halda təsadüfi olmayıb”.

Deputat onu da qeyd edib ki, bu, İrəvandan gələn təlimatlar əsasında reallaşır: “Paşinyan artıq yeni hökümət komandasını formalaşdırıb. Bu hökümət beş il müddətində özünün yeni proqramını qəbul edir. Bu da parlamentdə müzakirə predmetinə çevrilib. Həmin proqramda diqqətdən yayınmayan bir neçə detalı qeyd etmək istəyirəm. Birincisi, Paşinyan öz çıxışlarında “Dağlıq Qarabağ” və ya “Artsax” ifadəsi işlədir. Lakin Azərbaycan Prezidenti, cənab İlham Əliyev dəfələrlə öz mesajını həm Azərbaycan, həm dünya, həm də xüsusilə Ermənistan ictimaiyyətinə çatdırıb ki, “Dağlıq Qarabağ” adlı coğrafi ərazi yoxdur və Qarabağın iqtisadi zonası yaradılıb. İkincisi Paşinyan “Dağlıq Qarabağ xalqı” ifadəsini işlədir. Belə ifadələri eşidən erməni seperatçıları ruhlanır və bu cür aksiyalar keçirmək niyyətinə düşürlər. Yoxdur “Dağlıq Qarabağ” ifadəsi və “Dağlıq Qarabağ xalqı”! Qarabağ ərazisindəki xalqın nümayəndələri erməni millətindən olan bizim vətəndaşlar və Azərbaycanın vətəndaşlarıdır. Yəni hər ikisi azərbaycan və erməni millətinin təmsilçiləridir. Bunlar hər ikisi bizim vətəndaşlarımızdır. Cənab Prezident vurğulayır ki, Xankəndindəki 25 min erməni yolları azdırılmış əslində Azərbaycan vətəndaşlarıdır. Onlar bizim vətəndaşlardır və Azərbaycan cəmiyyətinə inteqrasiya olmalıdırlar. Paşinyan çıxışlarında bildirir ki, növbəti 5 il müddətində Ermənistan Dağlıq Qarabağ və xalqı ilə mübarizənin yeni formasını ortaya qoymalıdır. Bu da seperatizmə dəstəyin və revanşizmin ifadəsidir.

Bunlar heç bir halda qəbuledilməsi məsələlər deyil. Bütün bunlar regiona sülh və əminamanlıq gətirmir və əksinə vəziyyəti daha da gərginləşdirir. Heç bir halda Paşinyanın çıxışında böyük sülh müqaviləsi imzalanmasından bəhs olunmur. Bütün bu reallıqlar fonunda qarşı tərəf cənab Prezidentin CNN Türk kanalına müsahibəsini yaddan çıxarmamalıdır. Prezident çıxışı zamanı bildirir ki, biz öz sülhpərvər təşəbbüslərimizi ortaya qoymuşuq, masa üzərindədir və bu, daimi masa üzərində qala bilməz: “Ermənistan bütün bunlardan nəticə çıxarmasa Azərbaycan tərəfi qabaqlayıcı tədbirlər görmək məcburiyyətində qalacaq”.

2 sentyabrda ermənilərin qondarma “müstəqillik günü” keçirmək niyyəti regionda sülhə çox ciddi təhdiddir. Onun qarşısının alınması üçün isə beynəlxalq ictimaiyyət əsaslı addım atmalıdır" - deyə, Elman Nəsirov vurğulayıb.

***Z.Məmmədli***

# İlham Əliyev və xanımı şəhid ailələrinə mənzillər təqdim etdilər



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər.***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

# Prezident Maya Sandunu təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Moldova Respublikasının Prezidenti Maya Sanduya məktub ünvanlayıb.***

Unikal.org xəbər verir ki, məktubda deyilir: "Dost Moldova Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Xoş ənənələrə malik Azərbaycan-Moldova münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, xalqlarımızın rifahı naminə dostluq əlaqələrimizin möhkəmləndirilməsi, birgə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da əsirgəməyəcəyik.

Belə bir əlamətdar tarixdə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Moldova xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Bir gündə 84 mindən çox insan vaksin olundu



***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 84232 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 54063, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 30169 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 6419537, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 3884713, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 2534824 təşkil edir.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycanda koronavirusa yoluxanların sayı azaldı - 31 nəfər öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 714 yeni yoluxma faktı qeydə alınıb, 2 470 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

# Azərbaycan XİN: "Ermənistan "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir"



"Təəssüf ki, Ermənistan XİN-i hələ də "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir. Belə olan halda biz qarşı tərəfə bir daha xatırladırıq ki, 30 ilə yaxın müddət ərzində Azərbaycana qarşı təcavüz siyasəti həyata keçirərək, onun beynəlxalq tanınmış ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayan Ermənistan bu torpaqlardakı tarixi, mədəni və dini irsin dağıdılması, mənimsənilməsi, mədəni sərvətlərimizin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərə görə məsuliyyət daşıyır. Bu cinayətlərin araşdırılması üçün Azərbaycan tərəfindən vaxtı ilə YUNESKO-ya bölgəyə səfər edilməsi ilə bağlı çoxsaylı müraciətlər edilib və məhz Ermənistan beynəlxalq missiyaların Azərbaycanın o zaman işğal altında olan ərazilərinə səfər etməsinə əngəl olub. Bu fakt təşkilatın hesabatlarında əks olunub; Ermənistan XİN-nə YUNESKO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatı ilə tanış olmağı tövsiyə edirik. Hesabatda aydın şəkildə, Azərbaycan hökumətinin Dağlıq Qarabağ və işğal olunmuş digər ətraf ərazilərə fakt araşdırma missiyasının göndərilməsi müraciəti, lakin Ermənistanın hərbi işğalı səbəbindən bu missiyanın həyata keçirilməsinin mümkün olmadığı qeyd olunur".

Bu barədə Xarici İşlər nazirliyindən (XİN) Unikal.org-a verilən məlumatda bildirilib.

"Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra Ermənistanın bu torpaqlarda törətdiyi məqsədyönlü dağıntıların miqyası beynəlxalq ictimaiyyət, o cümlədən dövlətlərin rəsmi nümayəndələri, müstəqil media agentlikləri, habelə qeyri-hökumət təşkilatları və s. tərəfindən ətraflı şəkildə qeydə alınıb. Görünməmiş vandallıq və "mədəni təmizləmə" törətmiş bir ölkənin öz əməllərini ört-basdır etmək üçün Azərbaycana qarşı yalan və cəfəng ittihamlarla çıxış etməsi təcrübəsi təəssüf ki, yeni deyil. Ermənistan tərəfi sonunda anlamalıdır ki, bu təcrübənin heç bir perspektivi yoxdur.

Azərbaycan işğaldan azad olunmuş ərazilərimizə YUNESKO-nun müstəqil və obyektiv missiyasının həyata keçirilməsi məsələsinə dəfələrlə münasibət bildirib, hətta bu prosesi sürətləndirməyə çağırıb. Rəsmi İrəvanın belə bir missiyanın həyata keçirilməsinə etiraz etmədiyini bəyan etdiyinə görə, ümid edirik ki, missiya yaxın zamanlarda reallaşacaq və onilliklər ərzində Azərbaycan ərazilərində Ermənistan tərəfindən aparılmış tarixi, mədəni və dini irsin məqsədli şəkildə məhv edilməsi siyasətinin nəticələri qeydə alınacaq".

# "Zəfərlərimizin arxasında böyük fədakarlıqlar dayanır" - Ərdoğan



***Tariximizdə asan qazanılan zəfər yoxdur. Malazgird zəfərinin arxasında böyük fədakarlıqlar dayanır. Bizim üçün Malazgird tarixin tozlu səhifələrində qalan sıradan bir qələbə deyil.***

Unikal.org Türkiyə KİV-ə istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Malazgird zəfərinin 950-ci ildönümü münasibətilə keçirilən tədbir zamanı deyib.

"Bir daha söz veririk ki, böyük və güclü Türkiyəyə gedən yolun kəsilməsinə icazə verməyəcəyik. O illərdə, tariximizin hər dövründə olduğu kimi, dövlətimizi məhv etməyə yönəlmiş daxili və xarici hücumlarla qarşılaşdıq. Sultan Alparslanın 9 illik hakimiyyəti xalqın məmnuniyyətinin zirvəyə çatdığı bir dövr idi. Sultan Alparslan bu geniş coğrafiyada birlik və ədalət qurmaq üçün səmimi səylər göstərdi", - Ərdoğan bildirib.

# Nazir sabiq müavinə vəzifə verdi

***Azərpoçt MMC-nin baş direktorunun sabiq müavini Hacı Hacıyev yeni vəzifəyə təyin edilib.***

Bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev əmr imzalayıb. Əmrə əsasən, Hacı Hacıyev AzInTelecom MMC-nin baş direktorunun korporativ idarəetmə üzrə müşaviri təyin olunub.

# "Paşinyanın işi-gücü bizi beynəlxalq aləmdə alçaltmaqdır" - Anna Qriqoryan

***"Xatırlatmaq istəyirəm ki, Gorus-Qafan, eləcə də Qafan-Çakaten (Qafanın kəndi) yolunu bu hakimiyyət bizim arxamızda hansısa sənədlə düşmənə təhvil verib və bununla da Zəngəzurun təhlükəsizliyini təmin etdi".***

Unikal.org xəbər verir ki, bunu "Ermənistan" fraksiyasının deputatı Anna Qriqoryan parlamentin bugünkü iclasında səsləndirib və bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Gorus- Qafan yolunu bağlayıb və mülki vətəndaşlar orada qalıb. Yalnız Rusiya sülhməramlılarının müdaxiləsindən sonra həmin insanları çıxarmaq mümkün olub. "İki gündür hakim partiya barışıqdan danışır, ancaq barışıq belə olmur. Müharibəni uduzan partiya (Paşinyanın rəhbərlik etdiyi Mənim Addımım partiyası) layiqli sülh gətirə bilməz, işi-gücü beynəlxalq aləmdə bizi alçaltmaqdır", - deyə deputat fikir bildirib.

***Ağarza Elçinoğlu***

# Prezidentdən növbəti Qarabağ və Zəngəzur mesajı

## İlham Əliyev: "Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik"

***"Biz ermənilərin bütün miflərini darmadağın etdik. Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz".***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev şəhid ailələri və Qarabağ qaziləri ilə görüşündə danışıb. "Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir. Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər", - Prezident vurğulayıb. Dövlətimizin başçısı deyib ki, Ermənistan acı məğlubiyyətin şokunu hələ uzun illər yaşayacaq: "Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq.



Böyük vəsait tələb edən bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur.

Dövlətimizin başçısı deyib: "Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur".

Prezident qeyd edib ki, müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərir, sözün əsl mənasında, ölümə gedirdilər. "Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir", - deyə dövlətimizin başçısı əlavə edib.

Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə həm Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı, eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də o qədər oraya getməyə can atmırdılar İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşmanın hərbi cinayət sayıldığını qeyd edən dövlətimizin başçısı deyib: "Əgər 90-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən, Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik bura. Bura Ermənistan torpağıdır. Biz burda yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara söz deyən yox idi, bizdən başqa. Minsk qrupu onlara bir söz demirdi".

Prezident bildirib ki, qanunsuz məskunlaşma təkcə Şuşada deyil, Cəbrayılda, Zəngilanda, Kəlbəcərdə, Laçında da aparılırdı. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi. Bütün şəhər və kəndlərimizi yerlə-yeksan ediblər.

"Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, bax, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır. Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini görür. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar. 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməməzliyə vurmayın. Bütün müsəlman aləmini Ermənistan rəhbərliyi təhqir edib. Qəbirləri dağıdan, qəbir daşlarının üzünü sildirən də, Ermənistana satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir. Kərpic-kərpic o evləri söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu, həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər, Şuşa şəhərini, Hadrutu, Xocavənd rayonunun 60 faizini, Suqovuşan qəsəbəsini azad edib.

Dövlətimizin başçısı çıxışında bu ərazilərin strateji əhəmiyyətindən danışıb. "Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir. İstər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. 7 iyul tarixi əgər 1923-cü ildə xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. 7 iyul artıq gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 7 iyul 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman mənim tərəfimdən imzalandı. Tarixi ədalət bərpa edildi ", - deyə Prezident vurğulayıb.

Prezident İlham Əliyev əziz şəhidlərimizin xatirəsini bir daha yad edərək deyib: "Siz, onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır".

***İnformasiya xidməti***



## "Rusiya "Taliban"ın növbəti addımlarını diqqətlə izləyəcək" - Peskov

***"Rusiya Əfqanıstanda stabilliyin yaranmasında maraqlıdır". Unikal.org "TASS"a istinadən xəbər verir ki, bunu Rusiya Prezidentinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov deyib.***

O, Əfqanıstandakı Rusiya diplomatlarının təhlükəsizliyini başlıca məsələ adlandırıb:

"Rusiya "Taliban"ın növbəti addımlarını diqqətlə izləyəcək. Əfqanıstan vətəndaşlarının və Rusiya diplomatlarının təhlükəsizliyi prioritet təşkil edir. Rusiya Əfqanıstanda sülh və stabilliyin yaranmasında maraqlıdır və Əfqanıstan xalqının nəhayət dinclik və təhlükəsizlik əldə etməsini istəyir".

Rusiyanın Əfqanıstandakı vəziyyətlə bağlı ABŞ-la kontaktda olduğunu vurğulayan Peskov "Taliban"ın hakimiyyətə gəlməsini de-fakto bitmiş məsələ hesab edib.

"Situasiya dəyişir və çox sayda məsələlər qalır", - deyə Peskov əlavə edib.

***Ağarza Elçinoğlu***

## Fransa Ermənistana yeni səfir təyin etdi

***Fransa Respublikası Ermənistana yeni fövqəladə və səlahiyyətli səfirini təyin edib.***

Unikal.org xəbər verir ki, bu barədə Emmanüel Makron fərman imzalayıb. Belə ki, fərmana əsasən Anne Luoy Fransanın Ermənistandakı səfiri təyin edilib.

***Gülayə Mecid***

## Çin ÜST-ü ABŞ laboratoriyalarını yoxlamağa çağırdı

***Çin Xalq Respublikasının Cenevrədə yerləşən BMT Baş Qərargahındakı Daimi Nümayəndəsi Çen Xu ABŞ-dakı bioloji laboratoriyaların yoxlanılması tələbi ilə Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) sorğu göndərib. Söhbət Fort Detrisk və Şimali Karolina Universitetindəki müəssisələrdən gedir.***

Unikal.org "Global Times"a istiunadən xəbər verir ki, müraciətdə pandemiyaya səbəb olan koronavirusun mənşəyinin araşdırılmasının vacibliyi bildirilib.

Nəşr qeyd edir ki, bu, Çinin diplomatik kanallarla ÜST qarşısında qoyduğu ilk tələbdir. Yüksək rütbəli çinli diplomatın təşkilatın rəhbəri Tedros Adanom Gebreyesusa ünvanlandığı müraciətə Çindən gələn 25 milyon İnternet istifadəçisindən gələn toplu bir məktub da əlavə olunub.




# "Hərbçimiz sülhməramlıların nəzarətində olan əraziyə keçib" - RƏSMİ

***Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Cəmil Natiq oğlu Gəncə hospitalının psixiatriya bölməsini özbaşına tərk edib.***

Bu barədə Unikal.org-un sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildirilib.
Qeyd olunub ki, sgər C.Babayev haqqında cinayət işi başlanılıb, araşdırma aparılır. "Ehtimal olunur ki, hərbi qulluqçumuz Rusiya sülhməramlılarının nəzarətində olan əraziyə keçib", - məlumatda bildirilib.

***Murad İbrahimli***

# Sülhməramlılarımız Əfqanıstandan çıxarıldı

***Əfqanıstan İslam Respublikasının Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirən 120 nəfərdən ibarət Azərbaycan sülhməramlısı tam heyətdə avqustun 26-da gecə saat 01:00 radələrində bu ölkədən çıxarılıb.***



Bu barədə Unikal.org-a Müdafiə Nazirliyindən məlumat evrilib.
Hazırda sülhməramlılarımız və onlara məxsus silah, hərbi əmlak hava yolu ilə Ankara şəhərinə daşınıb. Qısa müddətdə hərbi qulluqçularımızın Vətənə qayıdışı planlaşdırılır.
Qarşıya qoyulan tapşırıqları qardaş Türkiyə qüvvələri ilə birlikdə müvəffəqiyyətlə yerinə yetirən Azərbaycan sülhməramlıları xidməti vəzifələrini yüksək peşəkarlıqla icra edərək Əfqanıstanda təhlükəsizliyi təmin edib.

# Nazirlikdən Qəbələdəki yanğınla bağlı açıqlama

***Qəbələ rayonu, Solquca kəndi yaxınlığındakı dağlıq ərazidəki meşə sahəsində yanğın hadisəsi baş verib.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova Unikal.org-a bildirib ki, hazırda Nazirliyin yerli qurumları, Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları və kənd sakinləri yanğının söndürülməsi üçün çalışırlar.

***Seymur Əli***

# "Sistemin arxasında oğurluq təfəkkürü durursa, bunun xalqa faydası olmur"

## Həsrət Rüstəmov: "Ona görə də hakimiyyət əgər effektli fəaliyyət göstərmək istəyirsə, "ənənə və vərdişlər"indən əl çəkib, heç olmasa, tibb sahəsində şəffaflığı artırmalıdır"

***Xəbər verildiyi kimi, son günlər ölkədə koronavirusa yoluxma halları artmaqda davam edir. Bu ilin əvvəlinə qədər, vaksinasiya prosesindən sonra pandemiyanın bitəcəyi proqnozlaşdırılsa da, yoluxma və ölüm hallarının artması qeyri-müəyyən vəziyyət yaradıb. "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim Həsrət Rüstəmovla söhbətimiz də elə bu mövzuda oldu.***

***-Həsrət bəy, öncə yoluxma ilə bağlı vəziyyəti dəyərləndirməyinizi istərdik. Vaksinləşmə prosesinin genişlənməsinə baxmayaraq. yenidən yoluxma artdı, vəziyyət kritikləşdi. Səbəb nədir?***

- Təəssüf ki, Covid-19 infeksiyasının yenidən alovlanmasının şahidiyik. Artıq ötən il olduğu kimi reanimasiya şöbələrindəki boş çarpayıların sayı demək olar ki, yoxdur. Üstəlik hər gün təbliğatın miqyasının genişliyi xeyli dərəcədə sosial şəbəkələrdə sərbəst məlumat yaymaq imkanları ilə bağlıdır. Vaksin əleyhinə aparılan təbliğatın mütləq əksəriyyəti əsassız, elmi dəlillərə söykənməyən dedi-qodudan başqa bir şey deyil. Amma əsas məsələ təbii ki, bu işin bizdə pis təşkil olunmasındadır. Qardaş Türkiyədə nazir Fəxrəddin Qocanın apardığı təkbaşına təbliğata və ona müvafiq bizdəki boşluğa diqqət etsək vəziyyət aydınlaşar. Başqa sözlə desək günahın əsas hissəsi hökumətdə, bu işi yüksək səviyyədə görmə vəzifəsi üzərində olan şəxslərdədir.

***-Bəziləri bu prosesin hansısa qüvvələr tərəfindən idarə olunduğunu iddia edir və bu pandemiyanın hələ çox davam edəcəyini düşünür. Siz bu komproteorilər barədə nə deyə bilərsiniz?***

- Fikrimcə, bu məsələ də daha çox dərmanımız, aparatlarımız var. Amma bu sistemin arxasında əliəyrilik, oğurluq təfəkkürü durursa, bu var-dövlətin xalqa faydası olmur. Ona görə də hakimiyyət əgər effektli fəaliyyət göstərmək istəyirsə, "ənənə və vərdişlər"indən əl çəkib, heç olmasa, tibb sahəsində şəffaflığı artırmalıdır. Xalqı ilk növbədə bol, şəffaf və obyektiv informasiya ilə təmin etmək lazımdır ki, xalq da yalanlara inanmasın.

***-Bu prosesdə cəmiyyəti yönləndirmək üçün siyasi qüvvələrin üzərinə hansısa yük düşürmü, düşürsə, müxalifət lazımi dəstəyi verirmi?***

-Siyasi qüvvələr kifayət qədər işləyirlər. Xüsusilə də kütləvi təbliğat məsələsində məncə hakimiyyət müxalif siyasi qüvvələrə, ictimaiət nümayəndələrinə uduzur. Amma məsələnin maraqlı tərəfi odur ki, ictimai rəyə ciddi təsir edən, onu bir çox məsələdə ol-



xəstələnmə ilə bağlı statistika yüksələn istiqamətdə sürətlə davam edir. Növbəti alovlanmanın içərisində olmağımız artıq heç kimə qaranlıq olmamalıdır. Səbəblərə gəlincə əsas səbəb təbii ki, virusun mutasiyaya uğramış yeni ştammının bizim ölkəyə də gəlib çıxmasıdır. Söhbət "delta" ştammı kimi adlandırılan Hindistan variantından gedir. Zatən bizədək digər ölkələrdə, xüsusilə də qonşu Rusiya, İran və Gürcüstanda olan sonuncu alovlanmanın əsas səbəbi olan variant karonavirusun bizə keçməsi an məsələsi idi və bu da baş verdi. Bu variantın əsas xüsusiyyətlərindən birinin də aqressiv yayılma xüsusiyyətinin olmasını nəzərə alsaq vəziyyətin hara doğru getdiyini təsəvvür etmək heç də çətin olmaz. Vaksinləv bağlı isə onu deyim ki, əvvəla bizim ölkədə tam doza vaksin almış insanların sayı əhalinin təxminən 1/5-ni əhatə edir. Yəni vaksinləşmənin genişliyindən danışmaq mümkün deyil. Bu rəqəm heç olmasa əhalinin 50%-ni təşkil etsəydi, onda yəqin ki, başqa mənzərənin şahidi olardıq. Xüsusilə də xəstəxana yatışları, ağır xəstə sayı və ölüm statistikası daha az olacaqdı. Digər səbəb də məhz budur ki, vaksin nəticəsində yaranmış immunitet və ya xəstələnib sağalmış şəxslərin immuniteti mutasiyaya uğramış koronavirus variantına qarşı tam qoruya bilmir. Yalnız ağır xəstələnmənin və bunun nəticəsində baş verən ölümün qarşısını 100%-ə yaxın bir səviyyədə alır. Dünyada aparılan tədqiqatlar da, bizdəki statistik təhlil də bunu göstərir.

***-Vaksinləşməyə münasibət ortadadır. İnsanlar niyə bu qədər inamsız yanaşır? Günah insanlardadır, yoxsa prosesin təşkilatçılarında?***

-Vaksinə qarşı olan bu cür münasibət əvvəllər də olub. İnsanlar vaksinlərin əlavə təsirlərini həddindən artıq şişirdən çoxlu uydurmalar danışaraq tibb işçilərinin işini çətinləşdirirdilər. Sadəcə bu gün vaksin əleyhinə yanlış insan təxəyyülünün məhsuludur, nəinki obyektiv gerçəklik. İnsanlar həmişə əfsanələrə qulaq asmağı sevirlər. Mən bu xəstəliyin bu cür yayılmasını hansısa fövqalgücün insanları cazalandırması kimi dəyərləndirməyin tərəfdarıyam. Bəşəriyyət Yer kürəsini, onun təbii resurslarını vəhşicəsinə dağıtmaqdan əl çəkməsə və qlobal ekologiyaya maksimum diqqət ayırmasa bu cür hallar ilə daim qarşılaşacaq.

***-İstər pandemiyaya qarşı mübarizə, istərsə də vaksinləşmə prosesi ilə bağlı hökuməti tənqid edənlər var. Sizcə, Azərbaycan hökuməti həm sosial, həm tibbi, həm iqtisadi cəhətdən lazım olan tədbirləri həyata keçirirmi?***

- Yuxarıda qeyd etdiyim kimi ölkədəki vəziyyətin əsas cavabdehi hökumət olduğu üçün onun tənqid olunması olduqca təbiidir. Üstəlik nəzərə alsaq ki, bu sahədə də yeni rüşvət və korrupsiya hallarını hakimiyyət özü də etiraf edir, onda vəziyyətin ağırlığı tam aydınlaşar. Bəli, ölkəmizin imkanları var, biz fəxrlə deyirik ki, vaksinmiz, duğu kimi bu xəstəliklə bağlı yaranmış vəziyyətdə də yönləndirənlərin heç birinin rəsmi statusu yoxdur. Başqa ölkələrdə olduğu kimi onlar parlamentdə və ya digər seçkili qurumlarda yoxdurlar. Orada olanların isə sözünə əhəmiyyət verən yoxdur. Yəni xalqın gözü tərəzidir, baxır görür ki, ona həmişə yalan danışmış, işi-gücü öz şəxsi xeyrini güdmək olan bir deputat və ya hər hansı bir məmur koronavirusdan, vaksindən , nə bilim xalqa qayğıdan danışır, dərhal kanalı dəyişir ki, bu süni qayğıkeşlikdən xilas olsun. Başqa cür desək vəziyyət elə formalaşıb ki, müxalif siyasi qüvvələrin və ictimai statusu olan digər şəxslərin doğru, elmi dəlillərə əsaslanan təbliğatı olduqca önəmlidir. Amma burada da əsas məqsəd xalqı doğru istiqamətə yönəltmək olmalıdır, opportunist meyllərdən qaçmaq lazımdır.
Hamımız çalışmalıyıq ki, xalqımız bütün dünyanı cənginə alan bu bəladan mümkün qədər az itki ilə çıxa bilsin.

***Z.Məmmədli***

# Ramin Bayramlının müəmmalı susqunluğu...

## TƏBİB rəhbəri özü barədə iddialara niyə cavab vermir?

***Yola salmaq üzrə olduğumuz həftə yerli media Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı özünə dəbdəbəli villa tikdirdiyi barədə məlumat yayıb. Həmin məlumatda iddia edilir ki, qurum rəhbəri 1 sot torpaq sahəsinin 70 min manatdan satıldığı Badamdar qəsəbəsi, birinci massivdən 4 sot torpaq alıb.***

İddialara görə, həmin torpaq sahəsində villa inşa etməyə başlayan Bayramlı baha qiymətə aldığı torpağı pandemiyadan qazanılan pullarla əldə edib. Elə villa da həmin pullarla tikilir (həmçinin bəziləri sosial şəbəkələrdəki müzakirələrdə Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin bir müddət əvvəl TƏBİB-də keçirdiyi əməliyyatları, həmin əməliyyatlar zamanı koronaviruslu xəstələrin müalicə olunduğu xəstəxanaların rəhbərlərinin - “Yeni klinika” tibb müəssisəsinin direktoru Pərviz Abbasovun və FHN-in Zığda yerləşən modul tipli xəstəxanasının baş həkimi İmran Ağayevin, eləcə də onların çevrəsinə aid olan şəxslərin həbs edilməsini, bu şəxslərin qabaqcadan əlbir olaraq, koronaviruslu xəstələrin rəhbəri olduqları tibb müəssisələrində yerləşdirilməsi müqabilində onların yaxınlarından müxtəlif məbləğlərdə - 3000-3500 manat rüşvət almalarını yada salır, hələ o zaman bütün bunlara görə TƏBİB rəhbərliyinin də ciddi başağrısı yaşaya biləcəyini xatırladırlar...)

Lakin maraqlıdır ki, bu məlumatın üzərindən günlər keçsə də, TƏBİB sədri həmin iddialara hələ də cavab verməyib.

Qeyd edək ki, bundan əvvəl müxtəlif internet resurslarında paytaxtdakı “Referans” klinikasının da R.Bayramlıya məxsus olması barədə iddialar ortaya atılmışdı. Ramin müəllim həmin vaxt da bu iddialarla bağlı susqunluq nümayiş etdirmişdi.

Elə indi də onun Badamdarda, vaxtilə müdafiə sənayesi naziri olmuş mərhum Yavər Camalov və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə məxsus mülklərlə qonşuluqda villa tikdirdiyi barədə çoxsaylı media quruluşlarında yayılan, eləcə də sosial şəbəkələrdə geniş müzakirə olunan iddialar barədə səssiz qalması da diqqətçəkicidir. Məlumatlarda o da bildirilib ki, TƏBİB rəhbərinin qonşuları onun tez-tez əraziyə gələrək tikintinin gedişatı ilə maraqlandığını söyləyirlər. Bu isə sözügedən informasiyanın doğruluğuna dair qənaətləri möhkəmləndirir. Bir yandan Bayramlının susqunluğu, o biri yandan qonşuların məlum iddianı təsdiqləməsi, eyni zamanda haqqında danışılan villanın videogörüntüləri fonunda belə qənaət başadüşüləndir.

Həmçinin TƏBİB sədrinin özü və ya rəhbəri olduğu qurumun mətbuat sözçülərinin yayılmış məlumata münasibət bildirmələri vacibdir. Əks halda sosial şəbəkələrdə və internet mediasında haqlı olaraq sual edilir: cəmi iki il bundan öncə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin sədri təyin edilən Ramin müəllimdə baha qiymətə torpaq almağa və böyük bir mülk inşa etməyə yetəcək qədər pul hardandır?!



Yeri gəlmişkən, biz müəyyən vəzifəli şəxslərin, deputatların tez-tez sosial şəbəkələr və KİV-lər barədə narazılığını, giley-güzarını teztez eşidirik. Həmin narazılığın, giley-güzarın kökündə onların özləri barədə “əsassız” hesab etdikləri xəbərlərin yayılması dayanır.

Lakin o da bir faktdır ki, məmurlarımız, deputatlarımız haqlarındakı ciddi iddia və ittihamlara bir qayda olaraq ya ümumiyyətlə cavab vermirlər, ya da gecikmiş cavab verirlər. Ən yaxşı halda isə cavablar ümumi, mücərrəd sözlərdən ibarət olur. Nəticədə cəmiyyət həqiqətən yanlış informasiyanı belə doğru kimi qəbul etməyə, bu cür informasiyaların üzərindən mühakimələr yürütməyə başlayır. Ona görə də yaxşı olar ki, istər media resurslarında, istərsə də sosial şəbəkələrdə hər hansı ciddi iddia ortaya çıxdıqda buna dərhal, üstəlik, əsaslandırılmış, inandırıcılığı yüksək cavab verilsin, reaksiya göstərilsin ki, sonra da şikayətlənməyə ehtiyac qalmasın. Elə TƏBİB rəhbəri də yaxşı olardı ki, barəsində günlərdir geniş müzakirə predmetinə çevrilən, ictimai reaksiya doğuran informasiyaya gərəkən münasibət bildirsin. Belədə onun haqqında sözügedən bir iddiadan doğan dartışmalar da doğru istiqamətə yönələrdi. Yoxsa cəmiyyət Ramin müəllimin susqunluğunu razılıq əlaməti kimi qəbul edib müzakirələri bir az da dərinləşdirəcək.

Sonucda isə cəmi iki il bundan öncə TƏBİB-ə sədr təyin edilən bir şəxsin qısa vaxtda xeyli varlandığı barədə vətəndaşların fikri tamamilə qətiləşəcək...

***Toğrul Əliyev***

# Məmurların vətəndaş cəmiyyətinə müdaxiləsinin fəsadları: “İslahatlar başlayıb”

***“44 günlük müharibə zamanı və bu gün ölkənin fərqli açılıma getdiyi bir vaxtda ölkədə vətəndaş cəmiyyətinə dövlət məmurlarının yersiz müdaxiləsinin fəsadlarını gördük”.***



Bunu Bakıvaxtı.az-a açıqlamasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Əvəz Həsənov bildirib.

O, qeyd edib ki, 44 günlük müharibədən sonra hər şey dəyişdiyi kimi, vətəndaş cəmiyyətinə münasibət də dəyişib: “Hökumət həmin baryerləri yaradanları uzaqlaşdırmaqla bu bağları sındırdı və vətəndaş cəmiyyətinin inkişafı üçün fərqli konsepsiya ortaya qoydu: Vətəndaş cəmiyyətinin dövlətin partnyoruna çevrilməsi, dövlətdən ayrılacaq maliyyənin effektiv xərclənməsi üçün mexanizmlərin işlənib hazırlanması, QHT-lərə təsirlərin azaldılması, QHT-lərin ictimai nəzarətə diqqətinin artırılması, QHT-lər arasında könüllülük prinsiplərinin təbliği, vətəndaş cəmiyyətinin bacarıqlarının və gələcəkdə dayanıqlının artırılması.

Bu fərqli yanaşma vətəndaş cəmiyyəti arasında ciddi rəqabəti artıracaq. Heç bir QHT-nin xüsusi imtiyazlara malik olmadığını üzə çıxaracaq. Hamının bərabər şanslı olduğunu göstərəcək. Təbii ki, təcrübə, əlaqələr, çoxdan qurulmuş iş prosesi, stabil auditoriyanın olması artıq müəyyən saylı QHT-ləri startın ön nöqtəsinə çıxarıb. Deməli, böyük əksəriyyətin bu rəqabətli meydanda aktiv olmasına stimul olacaqdır.

QHT-lər bilməlidirlər ki, 10 noyabrdan sonrakı Azərbaycan fərqli ölkədir. Burada dövlətin QHT-lərə yanaşması və istəyi də fərqlidir. Dövlət QHT-ni partnyor görürsə onun professional qaydalara əməl edəcəyini, bacarıqlı, yenilikçi, açıq fikirli olacağına ümid edir.

44 günlük müharibədən sonra hər şey dəyişdiyi kimi, vətəndaş cəmiyyətinə münasibət də dəyişib. Bu dəyişikliyi vətəndaş cəmiyyəti özü də edəcəkdir. Müharibədən sonra Azərbaycanın münaqişə ilə bağlı tarixi yeniləndiyi kimi vətəndaş cəmiyyəti ilə bağlı tarix yeniləndi”.

Ə.Həsənov bildirib ki, dövlət orqanlarının şəffaflığı, xidmətlərin elektronlaşması, təmasların minimuma endirilməsi, təsirlərn azaldılması kimi prinsiplər QHT-lərdən yan keçmədi: “Artıq bu proses başlayıb və mexanizmlər hazırdır. QHT-lərin bu prosesə hazır olması və töhvə verməsi görüləcək işi çox sürətləndirəcək. Bu prosesə mane olmaq və ona təsir etmək cəhdi mümkünsüzdür. Çünki, QHT Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi və onun icrasına cavabdeh insanlar özləri ölkədə aktiv QHT rəhbərləridirlər. Onların hər birinin cənab Prezident qarşısında məsuliyyəti ilə yanaşı vətəndaş cəmiyyəti kimi öz QHT-ləri qarşısında da məsuliyyəti vardır. Hər kəsə bu islahatlar prosesində təmkin və fəal iştirak arzulayıram”.

# Keçmiş diplomatdan Operativ Qərargaha etiraz: “Hamamlar niyə işləmir?”



***Azərbaycanın İstanbuldakı sabiq baş konsulu, Yazıçılar Birliyinin üzvü Xeyrəddin Qoca Nazirlər Kabineti yanında Operativ Qərargaha etiraz edib.***

“Unikal”ın məlumatına görə, keçmiş diplomat Azərbaycandakı ictimai hamamların işləməsinə niyə icazə verilmədiyinə izahat istəyib:

“Hamamlar niyə işləmir? Bəli, 17 aydır, hamamlar işləmir! Bu ədalətli karrantin məhdudiyyəti deyil! Otellər, idman zalları, “aquapark”larda buxar otaqları, hovuzlar, kisə və massaj xidmətinə icazə verilir, bəs hansı səbəbdən bu sadalananlar ”hamam fəaliyyiti” adı altında olanda icazə verilmir? Bu cür yanaşmanın izahı nədir? Yoluxma dünyanın hər yerində olsa da, heç yerdə hamamlara məhdudiyyət yoxdur. Hamamlarla eyni vaxtda fəaliyyəti dayandırılan bütün sahələrə işləməyə icazə verildi, hətta toylar da başladı, amma 17 aydır 10.000-dən çox hamam işçilərinin haqqında düşünən yoxdur! Hamamlara da müəyyən gün və saatda məhdud müştərilərlə “COVİD pasportu” ilə işləməyə icazə vermək mümkündür və lazımdır...”.



## Vətən Müharibəsi Qəhrəmanlarının hamısına ev veriləcək

***Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülüb. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev şəhid ailələri və Qarabağ qaziləri ilə görüşündə bildirib.

"Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, - harada ki, biz indi görüşürük, - uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir", - deyə Prezident vurğulayıb.

Bu sahədə Azərbaycanın dünya miqyasında nümunəvi ölkə olduğunu bildirən dövlətimizin başçısı deyib: "Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım Sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq Sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adı alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar".

## Qubada "patı" istifadə edənlər ələ keçdi

***"Xaşxaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər çərçivəsində Quba Rayon Polis Şöbəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirirlər.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba Regional Qrupundan "Unikal"a verilən məlumata görə, RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri zamanı Quba rayon sakini Süleyman Talıbov, Bakı şəhər sakinləri Musa İbrahimov və Rauf Nəzərli saxlanılıblar. Həmin şəxslərin üzərinə baxış keçirilən zaman "patı", "şüşə" adlanan narkotik tərkibli metamfetamin aşkar olunaraq götürülüb.

# Elman Rüstəmovun izah edə bilmədiyi absurd...

## Əmanət faizləri düşür, bəs kredit faizləri niyə azalmır?

***Mərkəzi Bankın rəsmi elan etdiyi göstəricilərə əsasən, bu ilin birinci yarısında problemli kreditlərin həcmi yenidən artıb. Belə ki, ötən ili 893 milyon manat problemli kredit portfeli ili başa vuran banklada bu ilin ilk yarısında bu göstərici 914 milyon manata yüksəlib.***

Bu o deməkdir ki, yalnız son 6 ayda problemli kreditlərin həcmi 2.3 faiz artıb. İyun ayının yekunlarında problemli kreditlərin həcmində aylıq artım 7.7 milyon manat olub. Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramlının fikrincə, problemli kreditlərin həcminin artımasında pandemiyanın təsirləri xüsusi rol oynasa da bankların bahalı kredit siyasəti, o cümlədən bir sıra hallarda ödəmə qabiliyyətini yoxlamadan maliyyələşmələr həyata keçirilməsi də təsirsiz qalmayıb. Deputat şəxsi facebook hesabındakı rəyində ilginc bir məqama diqqət çəkib. O qeyd edib ki, eyni zamanda, depozit dividentləri ilə kredit faizləri arasında da kəskin fərq yaranıb. Artıq bəzi banklar xarici valyutada dividentlərə ya faiz ödənişi etmirlər, ya da cüzi divident hesablayırlar. Bir sözlə, depozit dividentlərinin düşməsinə baxmayaraq kredit faizlərində nəzərəçarpan azalmalar yoxdur. Yüksək kredit faizləri problemli kreditlərin həcminə təsir göstərir və nəticədə 2021-ci ilin birinci yarısında qaytarıla bilməyən kreditlərin həcmində artım müşahidə olunub. Bu baxımdan, faizlərin optimallaşdırılması və kreditlərə əlçatanlığın artırılması üçün Mərkəzi Bank tərəfindən daha sistemli tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

Üstəlik, belə bir ehtiyacın mövcudluğunu "Unikal" qəzeti başda olmaqla ölkənin aparıcı KİV-ləri,eləcə də iqtisadçı ekspertləri davamlı şəkildə dilə gətirsələr də, Azərbaycanın baş bankı və onun rəhbərliyi sözügedən mövzuda susqunluğa üstünlük verirlər.



Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov mətbuata açıqlamalarında ən müxtəlif səpkilərdə açıqlamalarla çıxış etsə də, kredit faizlərinin yüksək olması barədə adətən danışmamağa çalışır. Halbuki sözügedən məsələ olduqca ciddidir və Mərkəzi Bankın bu haqda nə düşündüyünü bilməyə ehtiyac duyulur. Eyni zamanda ölkənin baş bankı və baş bankiri izah etməlidir ki, Azərbaycanda əmanət faizləri düşdüyü halda kredit faizləri niyə azalmır. Bu absurd məntiqin həqiqətən ciddi izaha ehtiyacı var.

Əlbəttə, belə bir obyektiv izahatın ortaya çıxması üçün Elman Rüstəmov və ətrafı müəyyən reallıqların fərqində olmağı bacarmalıdır. Məsələn, mütəxəssislərin qənaətincə, ölkəmizdə kredit faizlərinin yüksək olmasının əsas səbəblərindən birini banklar arasındakı rəqabətin aşağı səviyyədə olması ilə əlaqələndirir. Adətən kredit faizləri banklar arasındakı rəqabət nəticəsində aşağı düşür.

Bir sıra banklarda cəlb edilən vəsaitlərin həddinin yüksək olması kredit faizlərinə birbaşa təsir göstərir. Bu baxımdan ekspertlər illərdir təklif edirlər ki, bank sektorunda rəqabətin gücləndirilməsi ilə bağlı Mərkəzi Bank tərəfindən fəaliyyət genişləndirilsin. Rəqabətin güclənməsi, aparıcı bankların, beynəlxalq arenada tanınmış bankların mərhələli şəkildə Azərbaycanın bank sektoruna cəlb edilməsi məqsədəuyğun olardı. Çünki bütövlükdə bank sektorunda rəqabətin gücləndirilməsi kredit faizlərinin aşağı düşməsinə gətirib çıxara bilər.

Lakin bu reallığın qəbul edilməsi və ona uyğun addımlar atılması baxımından biz Elman müəllim və komandasının konkret addımlarına şahid olmuruq.

Dəfələrlə deyilib ki, Mərkəzi Bank banklara depozit faizləri ilə kredit faizləri arasındakı fərqi azaltmaq üçün tövsiyələr verə bilər. Eyni zamanda, kredit faizləri ilə depozit faizləri və dividend arasındakı asılılığın öyrənilməsi, bununla bağlı ölkənin baş bankı tərəfindən depozit dividendləri ilə kredit faizləri arasında müəyyən bir marjın tövsiyə xarakterli müəyyənləşdirilməsi məqsədəuyğun olardı. Ancaq həmin məqamla bağlı da Mərkəzi Bankın konkret təşəbbüsləri mövcud deyil. Nəticədə isə ortaya xoşagəlməz mənzərə çıxır. Kredit faizləri yüksək olaraq qalır və vətəndaşın haqlı narazılığına səbəb olur, üstəlik, əmanət fazileri yüksəldiyi halda kredit fizləri azalmaq bilmir ki, bilmir...

*Sənan Mirzə*

# Müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilib

***Müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilib. Orta hesabla hər insana iki ödəniş edilib.***

Bunu Prezident İlham Əliyev şəhid ailələri və Qarabağ qaziləri ilə görüşündə onlara göstərilən dövlət qayğısından danışarkən bildirib.

Sağlamlığını itirmiş hərbçilərin ən müasir protezlərlə təmin edildiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb. Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın proteza ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir. Çünki mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik".

Prezident qeyd edib ki, müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməkdədir. "Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi, artilleriya ilə, qadağan edilmiş bombalarla, ağ fosforlu bombalarla, ballistik raketlərlə bombalanırdı. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olmuşlar və minlərlə insan öz əmlakını itirmişdir. Ona görə bu gün bu işlər də görülür, minlərlə ev inşa edilir, onların böyük hissəsi artıq inşa edilib", - deyə dövlətimizin başçısı vurğulayıb.

# Hüseynqulu Bağırovun "korrupsiya piramidası"...

## Bir zamanların "ən fağır nazir"i barədə mif necə alt-üst oldu?

***Bu günlərdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar Mikayılovun sədrliyi ilə ilginc bir cinayət işinin mühakiməsi keçirilir.***

Belə ki, balıqçılardan 287 min 660 manat rüşvət almaqda təqsirli bilinən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sabiq vəzifəli şəxsləri ədalət qarşısına çıxarılıb. Cinayət işinin materiallarından aydın olur ki, ETSN-nin Su hövzələrində bioresursların artırılması və mühafizəsi xidmətinin Sumqayıt-Xaçmaz sektorunun müdiri Fikrət Paşayev, Balıqartırma İdarəsinin Sumqayıt-Xaçmaz regionu üzrə bölməsinin mütəxəssisi İbrahim Muxtarov və Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin Su hövzələrində bioresursların mühafizəsi xidmətinin Sumqayıt-Xaçmaz region üzrə sektorunun baş müfəttişi Zahid Bəkirov qabaqcadan əlbir olaraq 2003-2018-ci il tarixləri ərzində balıq ovu sezonunda Xəzər dənizinin Sumqayıt-Xaçmaz sahil zolağına aid olan hissəsində qeyri-qanuni balıq ovunun aparılması, balıq ovu ilə bağlı ayrı-ayrı şəxslərin sahil zolağına sərbəst çıxışlarına icazə verilməsi, habelə həmin qanunsuz hərəkətlərin davam etməsinə şərait yaradılması müqabilində balıqçılıq fəaliyyəti ilə məşğul olan 31 şəxsdən rüşvət alaraq öz aralarında bölüblər. Əslində Hüseynqulu Bağırovun rəhbərliyi dövründə ETSN-də bu cür hallar geniş yayılmışdı, baxmayaraq ki, eksnazir vəzifədə olarkən onun barəsində "ən fağır nazir" obrazı yaradılmışdı. Belə təəssürat yaradılırdı ki, Bağırov və nazirliyi rüşvət, korrupsiya işlərindən uzaqdır, şəxsən Hüseynqulu müəllimin özü isə "bir həsirdir, bir Məmmədnəsir"...

Lakin ETSN-in sabiq rəhbəri görəvindən kənarlaşdırılan kimi "açıldı sandıq, töküldü pambıq". Məlum oldu ki, Azərbaycanda çox sayda otelləri, digər obyektləri olan Bağırovun çoxprofilli biznes şəbəkəsi Böyük Britaniyadan Almaniyaya, Avstriyadan Kiprə, Çexiyadan Türkiyəyə, hətta Latviyayadək uzanır. Bağırovun vəzifədə olarkən qurub böyütdüyü biznesini Avropa ölkələrində və Türkiyədə oğlu Lətif Bağırov idarə edir. Böyük Britaniya mənbələrində göstərilir ki, 1979-cu ilin mayında anadan olmuş Lətif Bağırov Azərbaycan vətəndaşıdır, İngiltərə sakinidir, yəni bu ölkədə yaşamaq üçün biznes vizasına malikdir.



Latviyanın İnvestisiyalar və İnkişaf Agentliyinin (İnvestment and Development Agency of Latvia-LİAA) Azərbaycanla Latviya arasında iqtisadi-ticarət əlaqələrinə dair hesabatına əsasən isə sabiq nazir H.Bağırovun ailə üzvləri bu ölkədə ən iri azərbaycanlı investorlar arasında yer alır. İki il öncə məlum olmuşdu ki, Latviyanın biznes reyestrindən (Lursoft) götürülmüş məlumatlara istinadənadıçəkilən agentlik öz hesabatında L.Bağırovun bu ölkədə "Stamina Hospitality Services" və "Nordic Stamina" adlı şirkətlər açdığını yazırdı. Həmin şirkətlərdən birincisinin fəaliyyət sahəsi kimi otellərdə və analoji məkanlarda qonaqların yerləşdirilməsi xidməti göstərilir. İkinci şirkət və özünə aid olan və icarəyə götürülmüş daşınmaz əmlakın təkrar icarəyə və ya lizinqə verilməsi ilə məşğuldur. Hüseynqulu Bağırovun ailə üzvlərindən Liana Bağırova da Latviyadakı azərbaycanlı investorlar sırasında yer alıb, onun adı yuxarıda göstərilən şirkətlərin səhmdarı kimi göstərilib. Qeyd etmək lazımdır ki, Latviyadakı "Stamina Hospitality Services" Hüseynqulu Bağırovun qızı Sevinc Bağırovanın adına 2015-ci ilin martında Londonda qeydiyyatdan keçmiş "Stamina İnvestamina Limited" adlı şirkətin törəməsidir. Bu şirkət vasitəsilə Bağırovlar ailəsi Londonda bir neçə daşınmaz əmlak alıblar. Və 2016-cı ildə bu şirkəti bağlayıblar. Nəticədə həmin şirkətin çirkli pulların leqallaşdırılması üçün açıldığı barədə şübhələr, iddialar ortaya çıxıb. ETSN-in keçmiş rəhbəri və ailəsinin biznesi ilə bağlı bütün faktları xatırlatmaq gərəyi duymuruq. Necə deyərlər, "dənizin dadını bilmək üçün onun bütün suyunu içməyə ehtiyac yoxdur".

Sadəcə, insan soruşmaya bilmir: vəzifədə olarkən Azərbaycanın az qala ən fağır naziri kimi təqdim olunan Bağırov ölkə daxilində və onun hüdudlarından kənarda belə böyük biznes şəbəkəsini hansı vəsaitlər hesabına yaradıb? Fikrimizcə, həmin suala cavab tapmaq üçün elə yazının əvvəlində bəhs elədiyimiz Bakı Ağır Cinayətlər Məhkəməsindəki cinayət işinə ötəri nəzər salmaq kifayətdir. Bu cinayət işindən Hüseynqulu müəllimin nazir olduğu dövrdə ETSN-də hansı kirli işlərin görüldüyü bütün çılpaqlığı ilə ortaya çıxır. Üstəlik, şübhə yoxdur ki, Bağırovun fəaliyyəti ilə bağlı daha genişmiqyaslı araşdırmalar aparılsa, ortaya başqa ağır qanunsuzluqlar da çıxacaqdır. Necə ki, vaxtilə Hesablama Palatası, məsələn, 2018-ci ildə ETSN-nin tərəfindən geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya axtarış işlərinə yönəldilmiş vəsaitlərin istifadəsinə dair aparılan audit zamanı çoxsaylı yeyinti hallarını ifşa eləmişdi. Bütün bunlardan aydın olur ki: Birincisi, Hüseynqulu Bağırov barədə "ən fağır nazir" mifdən, əfsanədən başqa bir şey deyilmiş, həqiqətlə qətiyyən üstüstə düşmürmüş; İkincisi, eksnazirin nəhəng biznesi vəzifədə olduğu müddətdə ETSN-də dərin kök salan rüşvət və korrupsiya nəticəsində əldə edilən çirkli pullar üzərində təşəkkül tapıbmış.

***Sənan Mirzə***

# Valideynləri qızlarını öldürən hakimi bağışladı

***Bakı Ağır Cinayətlər Məhkəməsində həyat yoldaşını öldürməkdə təqsirli bilinən Sabunçu rayon Məhkəməsinin sabiq hakimi Fəqan Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

İşə hakim Telman Hüseynovun sədrliyi ilə baxılıb. Jurnalistlər zala proses başladıqdan 40 dəqiqə sonra buraxılıb. Buna qədər prokuror ittiham aktını elan edib və Fəqan Əhmədov ifadə verib.

Daha sonra şahidlər dindirilib. Mərhum Pərvanə Əhmədovanın atası Süleyman Quliyev ifadəsində bildirib ki, nikah dövründə qızı və kürəkəni arasında hər hansı problem olmayıb:

"Fəqanla Pərvanə 2006-cı ildən evlidir. Bu hadisə "bədbəxt hadisədir". Mən bir ata kimi Fəqanı bağışlayıram. Məhkəmədən xahiş edirəm ki, Fəqan Əhmədov bağışlansın. Həyat yoldaşım və mən yaşlı adamlarıq, səhhətimizdə də problemlər var. Biz 3 uşaqa baxacaq gücdə deyilik. Uşaqlara Fəqan daha yaxşı baxa bilər".



Daha sonra mərhumun anası Mətanət Quliyeva ifadə verib. O da qızının Fəqan Əhmədovla yaxşı münasibətləri olduğunu deyib: "Hadisədən bir az əvvəl, axşam saat 10-da qızımla danışdıq. Qızım mənimlə gülə-gülə danışdı. Bir az sonra hadisə baş verib. Fəqan mənə böyük oğul kimi olub. Heç vaxt ailələrində söz-söhbət, problem olmayıb. Onun bağışlanmasını xahiş edirəm. Heç kim istəməz ki, ailəsində belə bədbxət hadisə baş versin. Mən onu bağışlayıram, günahsız olduğunu bilirəm".

Fəqan Əhmədovanın anası Səmayə Əhmədova da məhkəmədə dindirilib. S.Əhmədova deyib ki, gəlini həyalı, abırlı xanım olub: "Pərvanə mənə gəlin yox, qızım kimi olub. 4 ilə yaxın bir evdə yaşamışıq. Aramızda heç bir problem olmayıb. Oğlumla yaxşı yola gediblər. Hadisə günü Fəqan mənə zəng elədi. Dedi ki, "ana, gəl uşaqların başında dur". Kiçik oğluma zəng elədim. Dedim ki, Fəqan zəng edib, belə deyir. Sonra oğlum zəng edib dedi ki, bağa getməliyik. Oğlumla bağa gedəndə gördüm ki, həyətdə polislər var. Polisləri görəndə bildim ki, nəsə facie olub. Sonra da Pərvanənin atasıgilə xəbər verdim. Əgər mən bilsəm ki, Fəqan hansısa bir səbəbə görə Pərvanəni qəsdən öldürüb, mən bir ana kimi onu bağışlamaram. Amma bu bədbəxt hadisədir".

Daha sonra F.Əhmədovun qardaşı və dayısı da eyni məzmunda ifadə verib. Onlar Fəqangillə daimi gediş-gəlişləri olduğunu, cütlük arasında ciddi problem yaşanmadığını bildiriblər və hadisəni "bədbəxt hadisə" kimi gördüklərini deyiblər.

Hakim Telman Hüseynov növbəti şahid kimi Fəqan Əhmədovun 14 yaşlı oğlunun ifadə verməsini istəyib. Lakin F.Əhmədov məhkəmədən xahiş edib ki, oğlu prosesdə dindirilməsin:

"Oğlum keçid dövrünü yaşayır. İstintaqda 8 saat dindirilib. Psixoloji gərginlik yaşayıb. Vəkilim onu psixoloq yanına aparıb. Onun bu proseslərdən kənar qalmasını istəyirəm. Məhkəmədən bu xahişimi nəzərə almasını istəyirəm".

F.Əhmədovun vəkilləri bu xahiş əsasında vəsatət veriblər. Məhkəmə vəsatəti baxılmamış saxlayıb və Fəqan Əhmədovun oğlu prosesdə dindirilməyib.

Son olaraq təqsirləndirilən şəxsin qonşusu Əşrəf Hüseynov ifadə verib: "Hadisə günü bizim həyətdə yeyib içdik. 700 qramlıq araq almışdıq. Axşam saat 9 radələrində Fəqan evlərinə getdi. Bizdən təxminən 200 metr aralıda qalır. Sonra mən yatdım. Səhəri günü eşitmişəm ki, belə bir hadisə baş verib".

Növbəti iclas sentyabrın 16-a təyin olunub.

# "Azərbaycandakı erməni abidələri qoruma altındadır" - Fərid Şəfiyev



***Avqustun 25-də Ermənistan Xarici İşlər Nazirliyi Ermənistan işğalından azad edilmiş Azərbaycan Respublikası ərazilərində YUNESKO-nun missiyasının həyata keçirilməsinin vacibliyinə dair əsassız bəyanatla çıxış edib və Azərbaycanı məqsədyönlü şəkildə erməni abidələrini dağıtmaq və məhv etməkdə ittiham edib.***

Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib. O bildirib ki, Ermənistan XİN bəyanatında "Silahlı münaqişələr zamanı mədəni irsin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına istinad edir.

"Lakin qeyd etmək lazımdır ki, 30 illik işğal müddətində Ermənistan tərəfi Azərbaycan irsinə məxsus 100 mindən çox artefaktın qorunduğu 22 muzey, 4,6 milyon kitabın saxlanıldığı 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası, 808 əyləncə məkanı, o cümlədən 67 dini abidələrdən 63-nü məhv edib. Bununla yanaşı, Ermənistan tərəfdən Azərbaycan mədəniyyət abidələrinin saxtalaşdırılması və özününküləşdirilməsinə və daha əvvəl işğal altında olmuş ərazilərdə qanunsuz qazıntı işlərinin aparılmasına cəhdlər edilib. Buna 2021-ci il fevralın 20-də İkinci Qarabağ Müharibəsi zamanı Şuşadakı xalça muzeyindən çıxarılmış xalçaların Yerevanda təşkil edilmiş sərgisini misal göstərmək olar. Ermənistan tərəfinin bu addımı YUNESKO-nun "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasının kobud şəkildə pozulması deməkdir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəniyyət abidələrinin vəziyyətinə dair daha ətraflı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin hazırlığı xüsusi hesabatda tanış olmaq mümkündür. (https://aircenter.az/uploads/files/Cultural%20Appropriation.pdf )

Yuxarıda qeyd edilənlərlə yanaşı Ermənistandakı indiki və əvvəlki hakimiyyət 1988-89-cu illərdə bu ölkədən qovulmuş azərbaycanlılara məxsus mədəni irsi mütəmadi olaraq məhv ediblər. Məscidlər, qəbiristanlıqlar və digər mədəniyyət abidələri dağıdılıb. Bununla əlaqədar YUNESKO əsrlərlə azərbaycanlıların yaşadığı müasir Ermənistana da missiyanın göndərilməsi imkanını nəzərdən keçirməlidir".

F.Şəfiyev qeyd edib ki, müstəqillik qazandığı ilk gündən Azərbaycan dünyaya multikultural dəyərlərə sadiqliyini nümayiş etdirib: "Uzun illər ərzində Azərbaycan YUNESKO-nun bütün dünyada irsin bərpası proqramında iştirak edib. 1990-cı illərdəki xaos zamanı zərər görmüş Bakıdakı erməni kilsəsi tam olaraq bərpa edilib və hazırda 5000 vacib erməni əlyazılarının saxlanıldığı kitabxanaya kimi fəaliyyət göstərir. Burada qeyd etmək yerinə düşər ki, vaxtilə azərbaycanlıların dini ayinlərini həyata keçirdikləri və Yerevanda fəaliyyət göstərən yeganə məscid Ermənistan rəhbərliyi tərəfindən İran mədəniyyət irsi kimi təqdim edilir. Bu günlərdə BMT-nin Azərbaycana yeni təyin olunmuş rezident-əlaqələndiricisi ilə görüş zamanı Azərbaycan prezidenti İlham Əliyev vurğulayıb ki, 30 il müddətində YUNESKO nümayəndələri Azərbaycanın çoxsaylı müraciətlərinə məhəl qoymayaraq Azərbaycanın daha əvvəl işğal altında olmuş ərazilərinə səfər təşkil etməyib. Buna baxmayaraq, ölkə başçısı bildirib ki, Azərbaycan müharibədən sonrakı indiki dövrdə Ermənistan tərəfinə görə təxirə salınmış bu səfərə hər zaman hazırdır. Bu baxımdan Ermənistan XİN-in Azərbaycan tərəfinin öz ərazisində YUNESKO missiyasının fəaliyyət göstərməsinə mane olmasına dair bəyanatı əsassızdır.

Yuxarıda qeyd olunan faktlar Azərbaycanın YUNESKO ilə əməkdaşlıq etməyə hazır olduğunu göstərir və sübut edir ki, digər dini konfessiya və mədəniyyətlərə məxsus abidələr kimi Azərbaycan ərazisindəki erməni mədəniyyət abidələri də qoruma altındadır".

# Məmur-oliqarxların müdhiş "dotasiya soyğunçuluğu"...

## Həftənin replikası: onlara qarşı da ucqar bir kəndin bələdiyyə sədri kimi güzəştsiz davranılacaqmı?

***Yola saldığımız həftə məlumat yayıldı ki, Lerik rayon Noda kənd bələdiyyəsinin sədrinin qanunsuz əməlləri ilə bağlı rayon prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanıb.***



Adıçəkilən rayon prokurorluğunun bu barədə məlumatına görə, ibtidai istintaqla müəyyən edilib ki, Noda bələdiyyəsinin sabiq sədri Səlim Səfərov işlədiyi müddətdə dövlət büdcəsindən bələdiyyəyə ayrılmış 1950 manat dotasiyanın 1600 manatını təyinatı üzrə istifadə etməyib. O, vəsaiti nağdlaşdıraraq şəxsi ehtiyacına xərcləyib və həmin vəsaitin təyinatı üzrə xərclənilməsi görüntüsünü yaratmaq məqsədi ilə rəsmi sənədə bilə-bilə yalan məlumat daxil edərək vəzifə saxtakarlığı edib. İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Səlim Səfərov Cinayət Məcəlləsinin 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilib. Hazırda cinayət işi baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib.

Əlbəttə, mənimsəmə mənimsəmədir, onun məbləği olmaz! Dövlətdən bir qəpik belə oğurlayan bunun hesabını qanunlar qarşısında mütləq verməlidir. Ona görə də Lerikdəki bələdiyyə sədrinin dövlət büdcəsindən ayrılmış 1950 manat dotasiyanın 1600 manatını təyinatı üzrə istifadə etməməsinə görə təqsirləndirilən şəxs qismində istintaqa çəkilməsi, işinin məhkəməyə göndərilməsi təəccüblü deyil. Sadəcə, təəccüblü odur ki, 1600 manatı dövlətin cibindən çıxarıb öz cibinə qoyan həmin bələdiyyə sədri buna görə haqlı şəkildə cəzalandırıldığı halda bəzi iri məmurlara niyə hələ də"gözün üstə qaşın var" deyilmir?

Bir az da konkretləşdirək: Azərbaycanda əksər rayon və şəhər icra hakimiyyətlərindən tutmuş dövlət şirkətlərinədək çoxsayda qurum büdcədən dotasiya alır. Özü də bu dotasiyaların məbləği milyonlarla manata bərabərdir. Və heç kimə sirr deyil ki, həmin dotasiyaların şəffaf, təyinatı üzrə xərclənməsi əksər hallarda şübhə altındadır. Bunu təkcə zaman-zaman Hesablama Palatasının, yaxud digər qurumların apardığı yoxlamalar, təftişlər demir. Bunu həm də sözügedən dotasiyalara baxmayaraq şəhər və rayonlarımızın çoxunda iqtisadi göstəricilərin zəifliyi, sosial çətinliklərin çoxluğu deyir. Bunu büdcədən dotasiya alması azmış kimi, üstəlik, öz sahələrində monopolist olan dövlət şirkətlərinin əksəriyyətinin sadalananlara baxmayaraq borc bataqlığında çabalaması, zərərlə işləməsi deyir. Cəmiyyət, müstəqil ekspertlər, media orqanları haqlı olaraq illərdir təkrarlayıb dururlar: "zərərlə işləyən" həmin dövlət şirkətlərinin rəhbərləri 10 milyonluq villalarda yaşayırlarsa, özləri və övladları 150-200 minlik lüks avtomobillərdən ibarət qaraja malikdirlərsə, yarım milyonluq saat taxırlarsa, ərəb şeyxzadələri kimi kef-damaq içində dövran sürürlərsə, bu maliyyə vəsaitinin qaynağının nə olduğu barədə çoxmu düşünməliyik? Aydın deyilmi ki, saydıqlarımız həm də milyonlarla manatlıq dövlət dotasiyalarının qeyri-şəffaf, qeyri-təyinatı üzrə xərclənməsinin, qısası, MƏNİMSƏNİLMƏSİNİN nəticəsidir!

Aydın deyilmi ki, oliqarxlaşmış bir çox məmurlar dövlət büdcəsindən rəhbəri olduqları müəssisələrə, qurumlara ayrılan pulları da oğurlayırlar, həmin müəssisələrin, qurumların özlərinin qazandığı vəsaitləri də ciblərinə qoyurlar.

Elə isə, məsələn, Lerikdə dövlətin 1600 manat puluna sahiblənən bir bələdiyyə sədri barədə görülən sərt tədbir niyə müəyyən dövlət şirkətlərinin rəhbərlərindən, konsern və səhmdar cəmiyyət sədrlərindən, icra başçılarından yan keçməlidir? Axı ədalətli olan da budur: dövlətin 1600 manatına göz dikən bağışlanmırsa, dövlətin milyonlarla manatına göz dikənlər ümumiyyətlə bağışlanmamalıdır?

Əks təqdirdə kimsə elə düşünər ki, korrupsiya ilə, yeyinti ilə mübarizə kosmetik xarakterlidir; üstəlik, böyük vəzifələr böyük oğurluqlara təminat verir...

Bu səbəbdən də kimliyindən və büdcədən çırpışdırdığı məbləğin həcmindən asılı olmayaraq heç bir korrupsionerin, rüşvətxorun gözünün yaşına baxılmamalıdır!

***Toğrul Əliyev***

# "Ayın fermeri" müsabiqəsinin qalibi bəlli oldu

***Azərbaycanda aqrar sahədə fəaliyyətin daha da stimullaşdırılması üçün fermerlər arasında elan edilən "Ayın fermeri" müsabiqəsinin qalibi müəyyənləşib.***



Unikal.org xəbər verir ki, müsabiqədə iştirak üçün 23 rayondan ümumilikdə 38 fermer müraciət edib. Müsabiqənin iki mərhələsi üzrə ayrı-ayrılıqda fermerlərin fəaliyyəti qiymətləndirilib.

Komissiya üzvlərinin qiymətləndirməsi nəticəsində taxılçılıqda yüksək məhsuldarlıq əldə etdiyinə görə fermer Qulu Novruzov "Ayın fermeri" müsabiqəsinin qalibi elan edilib. Salyan rayonunda 23 ildir taxılçılıqla məşğul olan Qulu Novruzov düzgün aqrotexniki qulluq nəticəsində taxıl sahəsindən buğda üzrə orta hesabla 53 sentner, arpa üzrə 42 sentner məhsul əldə edib. Taxıl biçinindən sonra fermer Qulu Novruzov əkin sahəsindən səmərəli istifadə edərək bir təsərrüfat ilində iki dəfə məhsul əldə etmək məqsədilə 190 ha sahədə təkrar qarğıdalı əkini aparıb.

Qeyd edək ki, "Ayın fermeri" müsabiqəsinin məqsədi nümunəvi fermerlərin müəyyən edilməsi, onların mükafatlandırılaraq həvəsləndirilməsi və qabaqcıl fermerlər arasında sağlam rəqabət mühitinin formalaşdırılmasından ibarətdir.

Xatırladaq ki, müsabiqənin təşkili ilə bağlı təsdiqlənən qaydalara əsasən, müsabiqədə "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçmiş və 2 ildən az olmayan müddətdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlər iştirak edə bilər.

# Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Birgəyaşayışın Azərbaycan modeli...

## Məhəmməd Noayev: "Müharibə dövründə erməni diasporu Azərbaycanda yaşayan azsaylı xalqlardan dəstək almaq istəsə də buna nail olmayıb"

***"Multikultrallıq Azərbaycan xalqının həyat tərzidir". Bu söz artıq aforizmə çevrilməkdədir. Əsrlərdir birgəyaşayış mədəniyyəti nümayiş etdirən Azərbaycanda çoxsaylı etnik xalqlar yaşayır. Azsaylı xalqlaradinc şərait, heç bir ayrıseçkiliyin qoyulmaması onların ölkəmizdə əsrlərdir ki, yaşamasına səbəb olan əsas amildir. Bu gün Azərbaycanda nəinki milli, həmçinin dini zəmində də heç bir münaqişə qeydə alınmır.***



Xalqımız etnik xalqların dini baxışına, dəyərlərinə hörmətlə yanaşır, onlara dini ayrıseçkilik qoymur. Hazırda ölkəmizdə əsrlər əvvəl yaşayan xalqların dini abidələri də qorunaraq saxlanılır.

Azərbaycan-Avar İctimai Birliyinin sədri Məhəmməd Noayev deyir ki, bu gün ölkəmizdə yaşayan bütün azsaylı xalqlar Azərbaycanı öz vətənləri hesab edir. Onun sözlərinə görə, 44 günlük müharibədə azsaylı xalqların birliyi bunu bir daha sübut etdi: "Öncə qeyd edim ki, Azərbaycan azsaylı xalqların sülh, əminamanlıq, birlik içərisində yaşadığı ölkələr içərisində nümunədir. Azərbaycanın adı multikultral ölkə kimi digər ölkələrə örnək göstərilir. Bu təsadüfi deyil. Dünya ölkələri Azərbaycanın birgəyaşayış mədəniyyətini öyrənir. Çünki, Azərbaycanda heç bir etnik qrup özünə qarşı yad münasibət görmür. Bu gün Azərbaycanda rusa, inqiloya, talışa, avara münasibət azərbaycanlılara olan münasibətdən seçilmir. Ona görə də bütün xalqlar ölkəmizdə azərbaycanlı adlanır. 44 günlük müharibədə də azsaylı xalqlar birlik nümayiş etdirdi. Ləzgi, talış, avar fərq qoymadan Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi, ərazi bütövlüyü uğrunda rəşadətlə döyüşdü. Azsaylı xalqlar düşmən üzərinə çağırış gözləmədən, könüllü şəkildə getdilər. Könüllü döyüşə yollanan yüzlərlə Azərbaycan oğulları arasında azsaylı xalqların olması da bu xalqın bütövlüyünün təzahürü idi".

M.Noayevin sözlərinə görə, müharibə dövründə erməni diasporu Azərbaycanda yaşayan azsaylı xalqlardan dəstək almaq istəyib. Müharibəni dəstəkləmək üçün onlara məktub da göndərib. Amma azsaylı xalqların cavabı da gecikməyib: "Erməni diasporu müharibə dövründə bizə məktub yazaraq bizdən müharibəyə qarşı çıxmağı, Ermənistana dəstək verməyi istəyirdi. Biz isə onların cavabını lazım olan kimi verdik. Onlara məktub yazmaqla yanaşı bununla bağlı bəyanat da verdik. Bildirdik ki, Qarabağ Azərbaycanın əbədi və əzəli torpaqlarıdır. Bu torpaqların işğaldan azad edilməsi üçün Azərbaycanda yaşayan bütün azsaylı xalqların oğulları müharibədə döyüşür, bir yumruq ətrafında sıx birləşərək Ali baş komandana dəstək verir. Bizim bu bəyanatımız onlara cavab oldu ki, bu xalqın birliyini heç kəs dağıda bilməz. 44 günlük müharibədə avarlar şəhid verdi. Təkcə Zaqataladan 40-dan çox igidimiz şəhid oldu. Onlar bu torpaq uğrunda ölümə getdilər. Buna isə səbəb onların Azərbaycanı öz vətəni hesab etməsi idi".

M. Noayev bu gün ölkəmizdə dininə, irqinə, milli mənsubiyyətinə görə heç kəsə ayrıseçkilik qoyulmadığını söyləyir. Birliyin sədri deyir ki, bütün azsaylı xalqlar Azərbaycanı öz vətəni hesab edir, burada dinc və mehriban yaşayır: "Bu gün bütün azsaylı xalqlara ölkəmizdə münasibət eynidir. Onlar da hər bir ölkə vətəndaşı kimi hüquqlarından istifadə edir. Vəzifələrə təyin edilmədə və sair məsələlərdə etnik xalqlara heç bir məhdudiyyət qoyulmur. Ölkəmizdə azsaylı xalqlara göstərilən multikultral davranış dünyaya örnəkdir" deyə bildirir .

Bu gün Azərbaycanda mövcud millimədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ölkəmizi çoxmillətli, çoxkonfessiyalı diyar, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirib. Azərbaycan dövləti multikultural ənənələr əsasında inkişaf edən zəngin milli-mədəni dəyərlərə malik bir ölkədir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzi olaraq, uzun illərdir ki, ölkənin inkişafının stimullaşdırıcı siyasətidir. Xüsusilə qeyd etmək lazımdır ki, müstəqilliyin bərpasından sonra multikulturalizmin inkişafı üçün xüsusi dövlət dəstəyi gücləndirilib. Onu da qeyd edək ki, Azərbaycanda multikulturalizm siyasətinin əsasının qoyulması mərhum prezident Heydər Əliyevin adı ilə bağlıdır. Konstitusiyamızın 48-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir. Müasir Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizmin inkişafına Prezident İlham Əliyevin fərmanı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi mühüm töhfə olub. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir. Azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün şərait yaradılıb. Bunun nəticəsidir ki, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və ictimai fikrinin formalaşmasında, eləcə də torpaqlarımızın, ərazi bütövlüyünün qorunmasında qeyri-azərbaycanlılar da örnək ola biləcək vətənpərvərlik nümayiş etdirə biliblər. Başqa xalqların, dinlərin nümayəndələri Azərbaycanı doğma Vətəni saydıqları, burada özlərini azad və sərbəst hiss etdiklərinə görə Azərbaycanın müdafiəsinə qalxıblar. Bu gün Şəhidlər xiyabanlarında ləzgi, talış, avar, udin, ingiloy və digər oğulların məzarları var. Ölkəmizin bütövlüyü uğrunda döyüşən qazilər arasında çoxmillətliliyə rast gəlmək olar. Buraya rus millətinin nümayəndəsi Denisi, avar Nəcməddini və daha neçə azsaylı xalqların nümayəndələri olan şəhidlərimizi daxil etmək olar...

*Gülayə Məcid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# DİN-dən əməliyyat: Həbs edilənlər var

***Baş Narkotiklərlə Mübarizə İdarəsinin keçirdiyi növbəti əməliyyatlar zamanı narkotiklərin satışı ilə məşğul olan şəbəkənin daha 15 üzvü saxlanılıb onlardan 65 kiloqrama yaxın narkotik vasitə və psixotrop maddə aşkar edilib***

DİN-dən Unikal.org-a verilən məlumata görə, nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, kultivasiyası, təbliğatı, sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin saxlanılaraq məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti silsilə əməliyyatlar həyata keçirilib.

Baş İdarə əməkdaşlarının daxil olmuş məlumat əsasında Səbail rayonunun Badamdar qəsəbə sakini Hikmət Əlizadəyə məxsus həyətyanı sahədə keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində oradan kultivasiya yolu ilə yetişdirilmiş, çəkisi 975 kiloqram olan 464 ədəd çətənə kolu və 50 kiloqrama yaxın qurudulmuş marixuana aşkar edilərək götürülüb. Hikmət Əlizadə paytaxtın mərkəzi rayonunda narkotik tərkibli bitkilərin kultivasiyasi ilə məşğul olduğunu və çətənə kollarını satmaq məqsədi ilə əkib-becərərək xüsusi qulluq etdiyini bildirib.

Qeyd edək ki, bu şəxs çətənə kollarını gizlincə əkmək üçün ailə üzvlərini də bir müddətlik Səbail rayonundakı evindən başqa yerə göndərib.

Baş İdarə əməkdaşlarının paytaxtın Yasamal, Səbail, eləcə də Cəlilabad rayonlarında həyata keçirdikləri növbəti əməliyyatlar zamanı xaricdə yaşayan və ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərməyə çalışan narkotacirlərlə sıx əlaqələr yaradaraq sərhədyanı rayonların ərazilərində narkotik vasitələri əldə edib Bakı şəhərinə gətirən daha sonra burada həmin maddələrin onlayn yolla hissə-hissə müxtəlif şəxslərə çatdırmaqla satışını təşkil edən şəxslər saxlanılıblar.

Tədbirlər zamanı qeyd edilən qanunazidd əməllərlə məşğul olan Cəlilabad rayon sakinləri əvvəllər məhkum olunmuş Novruzəli Novruzov, onun həmyerlisi Amid Həmzəyev paytaxt sakinləri Cavid Əliyev və Saul Məmmədov tutulublar. Müvafiq olaraq Novruzəli Novruzov və Amid Həmzəyevin üzərindən və Bakı şəhərində gizlətdikləri ünvanlardan satış üçün əldə etdikləri ümumi çəkisi 6 kiloqram 781 qram olan heroin, tiryək, metamfetamin və 1 ədəd elektron tərəzi aşkar edilib.

Qeyd edək ki, Novruzəli Novruzov Cəlilabad və ətraf rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə rəhbərlik edən, həmçinin paytaxt ərazisinə narkotik vasitələri gətirərək satışını təşkil edən əsas şəxslərdən biri olub. O, narkotik vasitələrin satışı zamanı şəxsiyyətini gizli saxlamaq üçün "Ataş" adından istifadə edirmiş.

Əməliyyatların davamı olaraq Cavid Əliyevdən narkotik vasitələrin onlayn satışı zamanı istifadə etdiyi 1 ədəd bank kartı, 4 kiloqram heroin, Saul Məmmədovun üzərindən və Yasamal rayonunda gizlətdiyi yerdən isə 2 kiloqramdan artıq heroin aşkar olunub.

## Təhsil Nazirliyidən peşə təhsili müəssisələrinə qəbul olunanlara müraciət



***Peşə təhsili pilləsi üzrə tələbə qəbulunun I mərhələsində uğur qazanmış şəxslər 30 avqust saat 18:00-dək tələb olunan sənədləri qəbul olunduğu peşə təhsili müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər.***

Bu barədə "Unikal"a Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, tələb olunan sənədlər aşağıdakılardır:

- Attestatın əsli;
- Sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış;
- Sistemdən (şəxsi kabinetdə) avtomatik çıxarılan ərizə nümunəsi;
- Şəxsiyyət vəsiqəsinin surəti;
- 3 x 4 sm ölçüdə dörd ədəd fotoşəkil;
- Hərbi bilet və ya çağırışçı şəhadətnaməsi;
- Güzəştli şərtlərlə qəbul edilən şəxslər üçün müvafiq təsdiqedici sənəd.

Qəbulun I mərhələsində müsabiqədən keçən şəxsin qəbul olunduğu peşə təhsili müəssisəsində qeydiyyatdan keçməməsi onun həmin ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.

Qeyd edək ki, müsabiqədə iştirak edən şəxslərin mobil telefonlarına nəticə barədə "SMS" bildiriş artıq göndərilib. Müsabiqədən keçən şəxslər qəbul olunduqları ixtisas və təhsil müəssisəsi barədə məlumatları portal.edu.az platformasında yerləşən "Şəxsi kabinet" bölümündən əldə edə bilərlər.

Peşə təhsili pilləsi üzrə elektron tələbə qəbulunun I mərhələsində uğurlu nəticə göstərməyən şəxslər II mərhələyə qatıla və ixtisas seçimi həyata keçirə biləcəklər. II mərhələ ilə bağlı məlumat yaxın günlərdə paylaşılacaq.

## "Növbəti üç ay kritik bir dövr olacaq" - ÜST

***Payız ayları pandemiyaya hazırlıq məsələsində son dərəcə əhəmiyyətli olacaq.***

Unikal.org xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Qebreyesus Cenevrədə keçirdiyi brifinq zamanı bildirib. ÜST sözügedən canlı yayımı "Twitter" üzərindən aparıb.

"Növbəti üç ay gələcək pandemiyaya hazırlığın təmin edilməsi və buna reaksiya tədbirlərinin təşkili üçün kritik bir dövr olacaq", - deyə ÜST rəhbəri bəyan edib.

Təşkilat rəhbəri onu da əlavə edib ki, dünyada koronavirusa gündəlik yoluxma və ölüm sayı ilə bağlı vəziyyət sabitləşib:

"Lakin bu sabitlik çox yüksək səviyyədədir - 4,5 milyondan çox yoluxmavə 68 min ölüm".

***Ağarza Elçinoğlu***

## Cəlilabad və Masallıda yaşayış yerini tərk edən koronavirus xəstələri müəyyən edilib

***Cəlilabad və Masallı rayonlarında yaşayış yerini tərk edən 4 koronavirus xəstəsi aşkarlanıb.***

DİN-in Mətbuat Xidmətinin Lənkəran regional qrupundan "Unikal"a verilən məlumata görə, Cəlilabad rayon sakinləri V.Məmmədov və Ş.Cavadzadəyə COVID-19 infeksiyası testinin pozitiv nəticəsinə görə, ev şəraitində müalicə təyin olunub və onlara tətbiq edilən qaydalara riayət etmələri, yaşayış yerini tərk etməmələri tapşırılıb. Lakin Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri müvafiq tədbirlərlə həmin şəxslərin karantin qaydalarını kobud şəkildə pozaraq yaşayış yerini tərk etdiyi müəyyən edilib və tibbi prosedurlar gözlənilməklə yaşadıqları ünvanlara qaytarılıblar.

Masallıda isə COVID-19 infeksiyası testinin pozitiv nəticəsinə go?rə, ev şəraitində müalicə təyin edilmiş G.Həsənov və F.Bayramovun yaşadıqları ünvanı tərk etdikləri müəyyən edilib. Masallı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi müvafiq tədbirlərlə həmin şəxslər ictimai yerlərdə aşkarlanıb. Həmin əraziyə təcili tibbi yardım avtomobilləri çağırılmaqla və tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvana qaytarılıblar.

Faktlarla bağlı araşdırmalar aparılır.

# Cəbrayıl, Zəngilan, Qubadlı və Ağdamda yarımstansiyalar tikilir

***İşğaldan azad edilən ərazilərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədi ilə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq hazırda "Azərenerji" tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının hər birində 110/35/10 kV-luq yarımstansiyalar tikilir.***



Unikal.org xəbər verir ki, bunun üçün "Şükürbəyli" yarımstansiyasından 40 km məsafədə yeni tikilən "Cəbrayıl" yarımstansiyasına, Cəbrayıldan 45 km məsafədə yeni tikilən "Qubadlı" yarımstansiyasına, Qubadlıdan 29 km məsafədə yeni tikilən "Zəngilan" yarımstansiyasına 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkilir. Hər üç yarımstansiyada 110 kV-luq açıq, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular quraşdırılmaqla yeni inzibati bina inşa edilir.

Yarımstansiyalar məsafədən idarə olunmaqla Dispetçer İdarəetmə sisteminə qoşulacaq. "Cəbrayıl" yarımstansiyasında artıq işlər tamamlanmaqdadır. "Qubadlı" və "Zəngilan"da da işlərin çox hissəsi görülüb və sürətlə davam etdirilərək yaxın vaxtlarda yekunlşaçaq. Bundan başqa, hazırda Ağdam rayonunda 110/35/10 kV-luq iki yarımstansiya tikilir.

"Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin verdiyi məlumata görə "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi sürətlə davam etdirilir və sözügedən yarımstansiyalara "Xındırıstan" yarımstansiyasından 40 km məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilir.

Qeyd edək ki, bu günə qədər "Azərenerji" tərəfindən Füzulidən Şuşaya 75 km, Daşkəsəndən isə Kəlbəcərə 70 km məsafədə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkilib və 110/35/10 kV-luq "Şuşa" və "Kəlbəcər" yarımstansiyaları tikilərək istismara verilib. Həmçinin Füzuli şəhərində 110/35/10 kV-luq "Füzuli" yarımstansiyası tikilib, eyni zamanda Füzuli rayonundakı "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub.

# DSX-dən əməliyyat: Şübhəli şəxs saxlanıldı

***Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.***

Bu barədə Unikal.org-a Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən məlumat verilib.

Avqust ayının 25-də DSX-nin əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 8 kiloqram 500 qram narkotikə bənzər vasitənin, 8370 ədəd psixotrop və güclü təsirli maddənin qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirilməsinin qarşısı alınıb.

DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti sahəsində keçirilmiş əməliyyat tədbirləri nəticəsində Füzuli rayonunun Arayıtlı kəndi ərazisindən bağlama götürərək uzaqlaşmağa cəhd göstərən 1 nəfər şübhəli şəxs saxlanılıb.

Saxlanılan şəxsin 1994-cü il təvəllüdlü Bakı şəhər sakini Kərimov Ziyad Əhəd oğlu olması müəyyənləşdirilib, əlindəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 8 kiloqram 500 qram narkotik maddəyə oxşar vasitə (7300 qram "marixuana", 1000 qram "heroin", 200 qram



"metamfetamin") və 8370 ədəd psixotrop tərkibli "Preqobalin" həbləri aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Xəzərin səviyyəsi 1,5 metrə düşüb" - ETSN

***Son 10 ildə Xəzər regionunda baş verən iqlim dəyişiklikləri su bioloji ehtiyatlarının həcminin əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Xəzərin bioloji resurslarının vəziyyəti dənizlə ona tökülən çaylar arasında birbaşa əlaqədə qiymətləndirilməlidir. Hava istiliyində anomal artım hətta qış mövsümündə də müşahidə olunur.***



"Unikal" xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Resursların Tədqiqatı Mərkəzinin direktoru, bioloqiya üzrə elmlər doktoru, professor Mehman Axundov deyib.

Onun sözlərinə görə, 2010-cu ildən sonra Kür çayının illik axını demək olar ki, 40-50% azalıb, oxşar proseslər Xəzərə daxil olan çay axınının 85%-ə qədərini təmin edən Volqada da müşahidə olunur: "Dəniz suyunun intensiv buxarlanması atmosfer temperaturunun iqlim artımı fonunda, Xəzər dənizinin səviyyəsinin demək olar ki, 1.5 metrə düşməsinə səbəb oldu. Buna baxmayaraq, son illərdə Kür axınının azalması səbəbindən dəniz suyu Salyana qədər çayın aşağı axar hissəsini doldurmağa başladı. Təbii ki, bunun nəticəsində yarıkeçici (çəkikimi balıq növləri) və anadromlu (nərə balıqları, qızılbalıq) balıqların kürüləməsi və təbii çoxalması üçün Kürə girməsi qeyri-mümkün olur. Bu, son 5-6 ildə müşahidə edilir və bu o deməkdir ki, balıq ehtiyatlarının təbii artırılması mümkün deyil, balıq resursları getdikcə azalır. Bütün bunlar bizi nəinki qiymətli vətəgə əhəmiyyətli balıq növlərinin, həm də Xəzərin bütün endemik olan balıq faunasının, biomüxtəlifliyin azalması ilə təhdid edir".

# Xarici ticarətdəki müsbət saldoya aldanmamalıyıq - TƏHLİL



***Dövlət başçımız İlham Əliyev müsahibəsində bildirmişdi ki, ilin ilk 6 ayının yekununa əsasən, xarici ticarətimiz üzrə müsbət saldo 3,4 milyard ABŞ dolları təşkil edir və belə getsə, ilin sonuna qədər bu rəqəm 6-7 milyard dollar olacaq. "Dünya ölkələrinin əksəriyyətində saldo mənfidir, yəni, daha çox idxal edirlər, nəinki ixrac. Bu, valyuta məzənnəsinə təsir göstərir, ölkələr borclanmaya gedirlər",- dövlət başçısı qeyd etmişdi.***

Xarici ticarət dövriyyəsi iqtisadiyyatda real vəziyyət göstəricisidir. Ümumiyyətlə, nə alıb, nə satdığın və nə qədər alıb, nə qədər satdığın çox şeyi müəyyən edir. Bu, real iqtisadi güc təzahürüdür. Pandemiya dünya ölkələrini ilk növbədə ona görə gücdən saldı ki, ticarət zəiflədi, ölkələrarası alış-veriş əlaqələri demək olar, dayandı və bütün bunların nəticəsində də istehsal azaldı. Hazırda əksər ölkələrin xarici ticarət əlaqələrində ona görə mənfi saldo hökm sürür ki, istehlak bərpa olunub, istehsal isə əvvəlki tempinə qayıtmayıb.

Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo yanvar-iyul aylarına görə 5 milyard ABŞ dollarını keçib. Yəni, cari ilin ilk 7 ayının yekununa 5 095 570 440 dolları məbləğində müsbət saldo yaranıb ki, bu da keçən ilin eyni dövrünə nisbətən 57,7 faiz çox deməkdir. Ümumiyyətlə, 2021-ci ilin yanvar-iyul aylarında ölkəmizin xarici ticarət dövriyyəsinin həcmi 17 691 469 140 dollar təşkil edib ki, bunun özü də ötən ilin eyni dövrü ilə müqayisədə 17,7 faiz yüksəkdir. Ötən 7 ayda ölkəmizdən xaricə 11 393 519 790 dollar dəyərində məhsul ixrac edilib, bu, keçən ilin eyni dövrü ilə müqayisədə 24,8 faiz artıqdır. Bu dövrdə ölkəmizə idxal məhsulu isə 6 297 949 350 dollar təşkil edib ki, bu da illik müqayisədə 6,7 faiz çoxdur.

Bütün bunlar sözsüz, müsbət göstəricilərdir. Ölkədə makroiqtisadi dayanıqlıq üçün tələb olunan əsas şərtlərdən biridir. Bunun əsasında maliyyə sabitliyi, dövlət büdcəsi gəlirliyi, istehsalın artım tempi və sair kimi məsələlər durur. Ümumiyyətlə, qazandığından nə qədər çox az xərcləsən bir o qədər çox iqtisadi güc və maliyyə dayanıqlığı əldə edə bilərsən. Yetər ki, buna şərait olsun.

Ancaq burada müəyyən məqamlar var. O da bilavasitə ixracın strukturu ilə bağlı, o cümlədən, dünya bazarlarında bu və ya digər məhsulların qiymət səviyyəsi kimi məsələ və amillərlə əlaqədardır. Belə ki, əvvəla, ölkəmizin ixracında neft-qaz sektoruna aid məhsullar 88,11 faiz yer tutur. Məsələn, yanvar-iyul ayları ərzində 12 061 122 840 kubmetr həcmində 2 014 914 970 dollar dəyərində təbii qaz ixrac etmişik ki, təkcə bu sahədə ötən illə müqayisədə ixrac həcmi 1,6 dəfə, ixracdan əldə edilən gəlir isə 526 495 010 dollar və ya 1,4 dəfə artıq olub.

İkincisi isə, dünya bazarlarında bu sahədə əlverişli konyuktura hökm sürüb və sürməkdə davam edir. Belə ki, ötən 7 ay ərzində xaricə 11 393 519 790 dollar dəyərində - keçən ilin eyni dövrü ilə müqayisədə 24,8 faiz artıq məhsul ixrac edilməsinin kökündə bu sahədə dünya bazarlarındakı əlverişli qiymət səviyyəsi və amili durur.

Yeri gəlmişkən, ötən yazılarımda da qeyd etmişdim ki, ölkə iqtisadiyyatında müsbət meyillər maydan etibarən özünü göstərməyə başladı. Bunu həm pandemiya şəraitinin sovuşmaq şərtləndirdi, həm neftin dünya bazar qiymətləri, həm qeyri-neft sektorunun inkişaf tempi, həm də iqtisadi aktivlikdə bərpa işartıları. Bunların sırasında neftin dünya bazar qiymətləri birincidir.

Ancaq ölkəyə idxalın genişlənməsi faktına da diqqəti çəkmişdim. Özü də əsas ticarət tərəfdaşı olan ölkələr tərəfindən. Hansı ki, həmin ölkələrdə milli valyutaların həm də ABŞ dollarına nəzərən ucuzlaşdırılması siyasəti nəzərə çarpırdı. Elə bunun nəticəsidir ki, hələ bu ilin ilk 5 ayı ərzində idxal-ixrac əməliyyatlarında Türkiyə, Gürcüstan və Rusiya Azərbaycanla ticarət əlaqələrində müsbət saldoya sahib idilər. Yəni, daha çox ixrac etmişdilər, nəinki idxal. Ötən 7 ayda bu vəziyyət dəyişibmi? Rəqəmlərsiz qeyd edə bilərəm ki, göstəricilərdə az dəyişiklik baş verib. Çünki manatın möhkəmliyi ixracdan çox idxalı stimullaşdırır.

Ümumiyyətlə, ABŞ dolları dünya üzrə möhkəmlənir, manatsa eyni nöqtədə "ilişib qalıb". Yəni, bahalaşmağa meyillidir. Belə şəraitdə isə istehlak bazarında idxal məhsullarının üstün mövqeyə sahib olması qaçılmaz xarakter daşıyır və daşımalıdır da.

Odur ki, əgər xarici ticarət dövriyyəmizdəki müsbət saldonun dayanıqlı olmasını istəyiriksə, ixracı özümüz stimullaşdırmalıyıq, xarici konyuktur amillər deyil. Ümumiyyətlə, dünya bazarlarındakı müvafiq konyuktur hesabına yaranan üstünlüyə əsla, bel bağlamamalıyıq. Düzdür, ilin sonuna müsbət saldo 7 milyard dollardan da çox təşkil edə bilər. Ancaq yanvar-iyul ayları ərzində ölkəmizə idxal məhsulları üzrə rəqəmin 6 297 949 350 dollara bərabər olması və bunun da illik müqayisədə 6,7 faiz çox təşkil etməsi faktı da nəzərdən qaçırılmalı deyil. Çünki əfsuslar olsun ki, real olaraq xarici ticarət əməliyyatlarımızda idxal ixracdan daha üstün və möhkəm özülə və struktura sahibdir.

***Pərviz Heydərov***



## "Norm" ASC-yə qarşı iş qaldırılıb - RƏSMİ

***Bazarda hökmran mövqedən sui-istifadə hallarının qarşısının alınması istiqamətində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir.***

Dövlət Xidmətindən Unikal.org-a verilən məlumata görrə, aparılan təhlillər göstərir ki, rast gəlinən ciddi nöqsanlardan biri də bazarda hökmran mövqe tutan sahibkarların kontragentə sərfəli olmayan şərtləri məcburi qəbul etdirməsi və topdansatış zamanı alıcılar arasında bərabər şəraitin yaradılmamasıdır. Bu cür hallar isə rəqabətin məhdudlaşdırılmasına, digər sahibkarların və istehlakçıların mənafeyinə toxunmasına gətirib çıxara bilər.

"Qeyd edək ki, bir müddət əvvəl sement və klinker bazarında aparılan araşdırmalar antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə "Norm" ASC-yə qarşı işin qaldırılması ilə nəticələnib. ASC isə Dövlət Xidmətinin göstərişlərinə dərhal reaksiya verərək həmin sahədə seçim hüququnun məhdudlaşdırılması elementlərini tədricən aradan qaldırıb.

ASC-nin Dövlət Xidmətinə ünvanladığı müraciətində şirkətin tərəfdaşları ilə bağladığı müqavilədə qanuna zidd bəndlərin dəyişdirildiyi və gələcəkdə bu cür hallara yol verilməməsi üçün müvafiq tədbirlərin görüləcəyi vurğulanıb. Bununla yanaşı, sementin topdan satışı zamanı bazar iştirakçıları üçün bərabər seçim hüququnun təmin edilməsi, digər sahibkarlar və istehlakçıların mənafeyinin qorunması məqsədilə satış şərtləri və digər aidiyyatı məlumatlar şirkətin rəsmi internet səhifəsinə yerləşdirilib və bu istiqamətdə müraciət mexanizminin asanlaşdırılması məqsədilə xüsusi bölmə yaradılıb.

## "Archico" MMC-nin əməkdaşı iş yerində öldü

***Avqustun 25-i saat 17 radələrində Yasamal rayonu, Moskva prospekti ev 75A, mənzil 30 ünvanında bir nəfər şəxsin elektrik cərəyanı vurması nəticəsində ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Yasamal Rayon Prokurorluğundan Unikal.org-a verilən məlumata görə, ilkin araşdırmalarla müəyyən edilib ki, "Archico" MMC-nin əməkdaşı Ceyhun Paşayev qeyd edilən ünvanda elektrik xəttində təmir işləri görən zaman elektrik cərəyanı vurması nəticəsində ölüb.

Faktla bağlı Yasamal rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq hərəkətləri davam etdirilir.

## Yas mərasimi təşkil edən şəxs cərimələndi

***Saatlıda karantin qaydalarının pozulduğu yas məclisi aşkar edilib.***

DİN-in mətbuat xidmətinin Unikal.org-a verilən məlumata görə, Saatlı Rayon Polis Şöbəsinin əməkdaşlarının karantin rejimi qaydalarının təmin edilməsi məqsədilə keçirdikləri tədbirlər nəticəsində rayonun Nərimankənd kənd Vasif Seyfullayevin fərdi yaşayış evinin həyətində yas mərasimi aşkar edilib.

Qayda pozuntularına yol vermiş ev sahibi ilə izahedici söhbətlər aparılıb və həmin şəxs barəsində inzibati qaydada tədbirlər görülüb.

# Slutskiy: "Rusiyada Mehriban Əliyevanı tanıyır, sevir və ona hörmət edirlər"

***"Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva təkcə ölkənizdə deyil, həm də bütün post-sovet məkanının hüdudları daxilində və xaricində özünü sübut etmiş nüfuzlu siyasətçidir".***

Bunu "Report"un Rusiya bürosuna Dövlət Duması Federal Məclisinin beynəlxalq işləri komitəsinin sədri Leonid Slutskiy bildirib.

Slutskiy Mehriban Əliyevanın fəaliyyətini və onun Azərbaycanın inkişafına verdiyi töhfələri yüksək qiymətləndirib. O bildirib ki, Birinci vitse-prezidentin fəaliyyəti Rusiya-Azərbaycan münasibətlərinin inkişafına da müsbət təsir göstərir. Komitə sədri bu əhəmiyyətli təsirin əməkdaşlığın bütün sahələrində hiss olunduğunu əlavə edib.

"Rusiyada Mehriban Əliyevanı tanıyır, sevir və ona hörmət edirlər", - deputat bildirib.

# Britaniyanın müdafiə naziri əfqanlara ölkədən quru yolla getməyi təklif edib

***Böyük Britaniyanın müdafiə naziri Ben Uolles hesab edir ki, Əfqanıstanı təyyarə ilə ölkəni tərk edə bilməyən vətəndaşlar buna quru yolla cəhd edə bilər.***

"Report" xəbər verir ki, bu barədə "Times" bildirib.

"Əgər mümkünsə mən başqa marşrutu nəzərdən keçirərdim. Əgər onlar üçüncü ölkəyə gedə biləcəklərini düşünürlərsə, onda bu, daha təhlükəsiz və daha yaxşı olardı. Mən onlara sərhədi keçməyə cəhd etməyi məsləhət görürəm", - Uolles deyib.

Daha əvvəl Britaniya Müdafiə Nazirliyi bildirib ki, avqustun 13-dən Əfqanıstandan ümumilikdə demək olar, 11,5 min insan təxliyə edilib.

Xüsusi halda xarici missiyalarla əməkdaşlıq etmiş əfqanlar "Taliban" hərəkatının hakimiyyətinə gəlməsindən sonra cəza qorxusu ilə ölkəni tərk etməyə çalışırlar. Onlar Kabil aeroportu vasitəsilə təxliyə edilirlər, ancaq təyyarə reyslərinə düşmək hamıya müvəffəq olmur. Qeyd edək ki, Əfqanıstandan bütün yerüstü sərhəd keçidlərinə "taliblər" nəzarət edir.

# Çin ABŞ laboratoriyalarının yoxlanılmasını tələb edir

***Çinin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Cenevrədəki Baş qərargahı yanında daimi nümayəndəsi təşkilatdan ABŞ biolaboratoriyalarını yoxlamağı tələb edir.***

Bu barədə məlumatı "Global Times" yayıb. Məlumata əsasən, Çinin ÜST yanında daimi nümayəndəsi Çen Syuy təşkilata müraciət ünvanlayıb və koronavirus pandemiyasının mənşələrinin axtarılması üçün ABŞ laboratoriyalarının yoxlanılmasını tələb edib.

Onun sözlərinə görə, koronavirusun laboratoriyadan sızması məsələsi hələ də mümkün variant hesab olunursa, Fort-Detrik və Şimali Karolina ştatının Universitetinin laboratoriyalarında da açıq araşdırmalar aparılmalıdır.

Ç.Syuy bildirib ki, Uhan universitetindən virusun sızması ehtimalı azdır.

"Əgər kimsə virusun süni şəkildə yaradıldığını düşünürsə, o zaman Amerikanın da laboratoriyalarını yoxlamaq lazımdır", - deyə çinli rəsmi vurğulayıb.

# Polşa Əfqanıstandan 900 nəfəri təxliyə edib

***"Polşa hakimiyyəti Əfqanıstandan 900-ə yaxın insanı təxliyə edib. Bu gün polşalıların və onlarla əməkdaşlıq edənlərin Əfqanıstandan təxliyəsi başa çatır".***

Bu barədə ölkənin baş naziri Mateuş Moravetski deyib.

Daha əvvəl Varşavanın Polşa səfirliyinin işçilərini, ölkənin hərbi kontingenti və beynəlxalq təşkilatlarla əməkdaşlıq edən Əfqanıstan vətəndaşlarını Kabildən çıxaracağı barədə məlumat verilmişdi.Bunun üçün Polşa bir neçə hərbi nəqliyyat və mülki sərnişin təyyarəsi ayırıb.

Baş nazirr ümumilikdə təxliyə üçün 14 uçuşun həyata keçirildiyini söyləyib. Birincisi, təxliyə edilən insanlar hərbi nəqliyyat təyyarələri ilə Kabildən Özbəkistana uçub, oradan isə mülki təyyarələr insanları Polşaya çatdırıb.

# Hulusi Akar Türkiyə hərbçilərinin Əfqanıstandan çıxarılmasından danışdı

***Əfqanıstandan türk qoşunlarının çıxarılmasını qısa bir zamanda başa çatdırmağı hədəfləyirik.***



Unikal.org xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib. O bildirib ki, Türkiyə hərbçiləri Əfqanıstandakı vəzifələrini uğurla yerinə yetiriblər: "Hava limanında həddən artıq sıxlığa və çətin şərtlərə baxmayaraq, Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti öz vəzifəsini fasiləsiz yerinə yetirir. İşimizə verdikləri dəstəyə görə dost və qardaş ölkələrə təşəkkür edirik. Təxliyə planlarımız Daxili İşlər Nazirliyi və digər müvafiq qurumlarla əlaqəli olaraq davam edir".

Xatırladaq ki, ötən gün Türkiyə Milli Müdafiə Nazirliyə türkiyəli hərbçilərin 36 saat ərzində Əfqanıstandan çıxarılacağını elan etmişdi.

# "Qərb Əfqanıstandan dəyərli insanları çıxarır" - "Taliban"

***Qərb ölkələri Əfqanıstana fayda gətirə biləcək insanları Kabildən çıxarır.***

Bunu "Taliban" hərəkatının nümayəndəsi Zabihulla Mücahid "The New York Times"ə müsahibəsində bildirib.

Ağ Ev daha əvvəl bəyan edib ki, 14 avqustdan bəri ABŞ Əfqanıstandan 82 mindən çox insanı evakuasiya edib, onlardan yalnız 4,5 mini amerikalılar və ailələridir.

"Qərb dövlətləri Əfqanıstanın işlərinə qarışmamalı və insan resurslarını ölkədən çıxarmamalıdır. Söhbət həkimlər, professorlar və burada ehtiyacımız olan digər insanlardan gedir. Onlar Amerikada aşpaz və ya qabyuyan ola bilərlər. Bu, qeyri - insani haldır", - "Taliban" nümayəndəsi deyib.

Mücahidə görə, ölkəni tərk etmək üçün qanuni sənədləri olan hər kəs müqavimətsiz paytaxt hava limanına gedə biləcək.

"Taliban" nümayəndəsi hərəkatın yaraqlılarının ABŞ-la işləyən keçmiş tərcüməçiləri və digər əfqanları təqib etmədiyini söyləyib. Qadınlar üçün sərt qaydalar yaratmaq istədiklərinə dair iddiaları rədd edib.



"Gələcəyi qurmaq və keçmişdə baş verənləri unutmaq istəyirik", - o vurğulayıb.

# Fransa Kabildən təxliyəni dayandırır

***Fransa 27 avqust axşamından etibarən Əfqanıstandan təxliyə əməliyyatını davam etdirə bilməyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin baş naziri Jan Kasteks bildirib.

"Evakuasiyanı sabah axşamadək davam etdirəcəyik. Bundan sonra biz Kabil hava limanından təxliyə əməliyyatları həyata keçirə bilməyəcəyik ",- Kasteks söyləyib.



Baş nazir qeyd edib ki, indiyə qədər Fransa öz ərazisində təxminən 2,5 min nəfəri qəbul edib. Onlar fransızlar və ölkələrində həyatları təhlükədə ola biləcək əfqanlardır.

Hökumət rəhbəri təxliyənin dayandırılması səbəbini açıqlamayıb.

Qeyd edək ki, "Taliban" Əfqanıstandan təxliyə üçün ABŞ və müttəfiqlərinə avqustun 31-dək vaxt verib.

# ABŞ-da COVID kabusu - Reanimasiyalar tam dolub

***ABŞ-da koronavirusun yeni dalğası nəticəsində yoluxanların çoxalması ilə xəstəxanaların reanimasiya şöbələri 77 faiz dolub.***

Azvision.az xarici mətbuata istinadən xəbər verir ki, bu barədə "QuoteWizard" sığorta və təhlil şirkətinin səhiyyə və insan xidmətləri departamentinin hesabatında qeyd edilib. Hesabatda Arkansas və Alabama əyalətlərinin səlahiyyətliləri bütün reanimasiya şöbələrinin dolu olduğunu, Kentukki valisi isə ağır xəstələri reanimasiyada yerləşdirmək üçün xəstəxanaların köçürüldüyünü açıqlayıb. Floridada 50 xəstəxanada tibb işçilərinin sayı xəstələrin müalicəsi üçün yetərli deyil. Məlumata əsasən, həftə sonuna qədər daha 60 xəstəxanada səhiyyə işçilərinin çatışmazlığı müşahidə ediləcək.

# Rusiya və Türkiyə yeni hərbi texnika hazırlaya bilər

***Rusiya və Türkiyə quru qoşunlarından istifadə edilmək üçün yeni hərbi texnika hazırlaya bilər.***

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə "Rostex"ə daxil olan "Rosoboroneksport"un mətbuat xidmətindən "Armiya-2021" beynəlxalq hərbi-texniki forumu zamanı məlumat verilib.

Məlumata görə, Türkiyə və Rusiya üçüncü ölkələr də daxil olmaqla, birgə layihələr həyata keçirirlər.

Bildirilib ki, Türkiyədən olan tərəfdaşlarla quru qoşunlarında istifadə ediləcək yeni hərbi texnikalar hazırlanması barədə bir sıra perspektiv layihələr mövcuddur. Qeyd edək ki, "Armiya-2021" beynəlxalq hərbi-texniki forumu 22-28 avqust tarixləri arasında keçirilir.

# Azərbaycan Paralimpiya Oyunlarında ilk medalını qazandı

***Azərbaycan Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında ilk medalını qazanıb.***

Bu barədə Unikal.org Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinə istinadən xəbər verir.

Pauerliftiq idman növü üzrə milli komandanın üzvü Pərvin Məmmədov (49 kq) 156 kq ağırlıq qaldıraraq, yarışın bürünc medalını qazanıb.



"Sevincimin həddi, hüdudu yoxdur. Bu, dünənə qədər mənim üçün yuxu kimi idi. Çox sevinirəm ki, Tokioda bayrağımızı ucalda bildim. Məşqçimizlə əziyyət çox əziyyət çəkdik. Şükür Allaha, əziyyətimiz yerdə qalmadı", - deyə Pərvin Məmmədov bildirib.

# Millimizi uçurum gözləyir

***Milli komandaların FİFA reytinqi ilə bağlı proqnozlar açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, baş tutacaq görüşlərdə daha real hesab olunan nəticələr əsasında ehtimallar cədvəli tərtib olunub.

Ekspertlər Azərbaycan yığmasının DÇ-2022-nin sentyabrda keçiriləcək seçmə oyunlarının hamısında uduzacağını düşünür. Proqnozlara əsasən, Canni de Byazinin yetirmələri səfərdə Lüksemburqla İrlandiyaya, evdə Portuqaliyaya məğlub olacaq.

Proqnozlar özünü doğrultsa, millimiz 20 xal itirəcək və FİFA reytinqində 8 pillə geriləyəcək. 120-ci sıraya yuvarlanmaq təhlükəsi olan komandanın aktivində 1146 xal qalacaq. Gözlənilən nəticələr qeydə alınsa, Tailand, Malavi, Yeni Zelandiya, Sudan, Niger, Tacikistan, Mozambik və Farer adaları uçuruma yuvarlanan yığmamızı keçəcək.

Qeyd edək ki, ilk üç pillədə dəyişiklik gözlənilmir. Belçika (1832), Braziliya (1822) və Fransa (1779) ön sıralarda qalacaq.




# Braziliya millisinin rəmzi komandasında - yığmamızın sabiq baş məşqçisi

***Braziliya millisinin tarixinin ən rəmzi komandası açıqlanıb.***

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) "pentakampeonlar"ın üç rəmzi "11-liy"ini müəyyənləşdirib.

Zəngin tarixə malik komandanın A, B və C yığmaları bəlli olub. Azərbaycan millisinin sabiq baş məşqçisi Karlos Alberto Torres müdafiənin mərkəzində yer alıb.

Taffarel, Roberto Karlos və Romario yalnız ikinci heyətə düşüb. Neymara isə heç bir komandada yer tapılmayıb.



**A yığması**

Qapçı: Jilmar;

Müdafiəçilər: Kafu, Karlos Alberto, Dominqos da Quya, Nilton Santos;

Yarımmüdafiəçilər: Didi, Ziko;

Hücumçular: Qarrinça, Ronaldinyo, Pele, Ronaldo

**B yığması**

Qapıçı: Klaudio Taffarel;

Müdafiəçilər: Calma Santos, Aldair, Luis Pereyra, Roberto Karlos;

Yarımmüdafiəçilər: Paulo Roberto Falkao, Sokrates;

Hücumçular: Jairzinyo, Romario, Zizinyo, Roberto Rivellino

**C yığması**

Qapıçı: Emerson Leao;

Müdafiəçilər: Dani Alves, Hilderaldo Luis Bellini, Lusio, Junior;

Yarımmüdafiəçilər: Jerson, Rivaldo;

Hücumçular: Julinyo, Artur Fridenreyx, Leonidas, Pepe

# FİFA cəzanı yüngülləşdirdi

***FİFA-nın İntizam Komitəsi Meksika Futbol Federasiyasının cəzasını yüngülləşdirib.***

Bunu FİFA açıqlayıb. Azarkeşlərin qeyri-etik şüarlar səsləndirməsi üzündən şimali amerikalıların yığması iki oyunu tamaşaçısız keçirməli idi. FİFA bu cəzanın bir oyuna endirilməsini məqsədəuyğun sayıb.

Qeyd edək ki, azarkeşlər Olimpiya Təsnifat Turnirinin Dominikan Respublikası və ABŞ-la qarşılaşmalarında qeyri-etik davranıblar. Meksika Futbol Federasiyası 60 min İsveçrə frankı cərimələnib. Bununla da yalnız Yamayka ilə sentyabrın 3-də keçiriləcək DÇ-2022-nin seçmə oyunu boş tribunalar önündə baş tutacaq.

# "Qarabağ" qrupun bir addımlığında

***"Qarabağ" bu gün növbəti avrokubok oyununu keçirəcək.***

Unikal.org-un məlumatına görə, ilk dəfə keçirilən Konfrans Liqasında mübarizə aparan Ağdam klubu Şotlandiyada "Aberdin"lə görüşəcək.

Pley-off mərhələsinin cavab oyunu qrupa vəsiqənin taleyinə aydınlıq gətirəcək. Bakıda keçirilən ilk matçda 1:0 hesabı ilə qalib gələn Qurban Qurbanovun yetirmələri üstünlüyünü qorumağa çalışacaq.

Son 7 ildə bir dəfə Çempionlar Liqası, altı dəfə Avropa Liqasının qrupunda oynayan "Qarabağ" uğurlu seriyasını davam etdirməyə köklənib. Təmsilçimiz 3-cü dərəcəli klub turnirində də buna nail olsa, hər üç yarışda qrupa düşən ilk komandalar sırasında olacaq.

Qeyd edək ki, görüş Bakı vaxtı ilə saat 22:45-də başlayacaq.

Konfrans Liqası
Pley-off mərhələsi
Cavab oyunu
26 avqust
22:45. "Aberdin" (Şotlandiya) - "Qarabağ" (Azərbaycan)
Baş hakim: Harald Lexner (Avstriya)
Aberdin. "Pittodri" stadionu
İlk oyun - 0:1

# "Qarabağ"ı necə narahat edə biləcəyimizi düşünürük" - Co Lyuis

***"Klubun heyətində kubokun finallarında oynamışam. Bu, böyük oyunlardır. Futbolçular da, məşqçilər də mükafat qazanmaq istəyir. "Qarabağ"la matç bizə titul qazandırmayacaq. Amma çox sayda mükafat gətirir. Məsələn, maddi mükafatlar və böyük səhnədə oynamaq imkanı".***

Qol.az Şotlandiya mətbuatına istinadən xəbər verir ki, bu sözləri Şotlandiya "Aberdin"inin qapıçısı Co Lyuis Konfrans Liqasının pley-off mərhələsində "Qarabağ"la cavab oyunu öncəsi deyib.

O bildirib ki, qrup mərhələsinə vəsiqə qazanmaq mükəmməl olardı: "Bu, ən azı daha 6 oyun keçirmək imkanı verir. Bunlardan üçü evdə keçiriləcək. Buna görə də azarkeşlər üçün əla günlər olacaq. Ümid edirəm ki, məhdudiyyətlərdən asılı olaraq azarkeşlər səfər oyunlarına da gedə biləcəklər, çünki onlar bunu sevir. Koronavirus pandemiyası dövründəki sıxıntılı dövrdə maliyyə baxımından alacağımız mükafat da çox önəmlidir. Uzun illərdir qrupa düşmürük. "Aberdin"i Avropa futboluna qaytarmaq fantastik imkandır".

C.Lyuis onları qrupdan bir oyun ayırdığını vurğulayıb: "Bunun üçün qalib gəlməliyik. "Qarabağ"ın yaxşı komanda olduğunu bilirik. Ancaq son iki turda da yaxşı rəqiblərlə qarşılaşmışıq. Rəqib yaxşı keyfiyyətlərə sahibdir, amma bunun üzərində çox dayanmaq istəmirik. Hazırda "Qarabağ"ı necə narahat edə biləcəyimizi düşünürük".

Qeyd edək ki, bu gün keçiriləcək "Aberdin" - "Qarabağ" matçı Bakı vaxtı ilə saat 22:45-də başlayacaq. Bu komandalar arasında ilk görüşdə Ağdam təmsilçisi 1:0 hesabı ilə qalib gəlib.

# "Borussiya"dan "Sevilya"ya

***"Borussiya"nın (Dortmund) yarımmüdafiəçisi Tomas Dileyni "Sevilya"ya transfer olunub.***

Qol.az İspaniya klubunun saytına istinadən xəbər verir ki, danimarkalı oyunçu ilə 2025-ci ilin yayına qədər müqavilə imzalanıb. Qeyd edək ki, T.Dileyni 2018-ci ildən "Borussiya"da oynayırdı.

# Yığmamızın bayraqdarı bəlli oldu

***Azərbaycan nümayəndə heyətinin Rusiyanın Kazan şəhərində keçiriləcək I MDB Oyunlarının açılış mərasimindəki bayraqdarı bəlli olub.***

Apasport.az saytının məlumatına görə, bayrağımızı yunan-Roma güləşçisi Həsrət Cəfərov daşıyacaq.

O, ötən həftə Rusiyanın digər şəhəri - Ufada keçirilən dünya çempionatının qalibi olub. 67 kq çəkidə çıxış edən Cəfərov turnirin finalında erməni rəqibinə qalib gələrək qızıl medal qazanıb.

Qeyd edək ki, açılış mərasimində pandemiya ilə əlaqədar olaraq, hər ölkədən yalnız 30 nəfər idmançının iştirakı nəzərdə tutulub.